**Quran və Sünnə işığında**

# GÜNDƏLİK ZİKRLƏR

بسم الله الرحمن الرحيم

*Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

# Müqəddimə

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə, onu azdıran tapılmaz, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, O təkdir şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd səllallahu aleyhi və səlləm Onun qulu və rəsuludur.

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Muhəmməd səllallahu aleyhi və səlləmin yoludur. Habelə, ən pis əməl *dinə əlavə edilən* yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət zəlalət və hər bir zəlalət Cəhənnəmə aparan yoldur. Sonrasına gəlincə...

Rəsulullah ﷺ demişdir: "Allahı zikr etmək, Onun sevdiyi əməllər, habelə, elm öyrədən və elm öyrənən şəxs istisna olmaqla, dünya və onun üzərindəkilər lənətlənmişdir."[1]

İbn Rəcəb ﷺ bu hədisi belə izah etmişdir:[2] "Dünya və onun üzərindəkilər lənətlənmişdir, yəni Allahdan uzaqlaşdırılmışdır. Çünki dünya, adamı Allahı zikr etməkdən yayındırır. Allaha tərəf yönəldən və Onu tanıtdıran, Ona yaxınlaşdıran və Onun razılığını qazandıran faydalı elm öyrənmək və öyrətmək, habelə, Allahı zikr etmək və Allahın sevdiyi başqa əməlləri – *əməl sahibini Allaha yaxınlaşdıran işləri* yerinə yetirmək isə müstəsnadır. Dünyadan da, məhz bu məqsədlə yararlanmaq olar. Belə ki, Allah Öz qullarına yalnız Allahdan qorxmağı və Ona itaət etməyi əmr etmişdir. Buna müvəffəq olmaq üçün isə Allahı davamlı şəkildə zikr etmək gərəkdir. Bu xüsusda İbn Məsud ﷺ demişdir: "Allahdan layiqincə qorxmaq üçün Onu zikr etmək və Onu unutmamaq gərəkdir."[3] Allahın Öz

---

[1] "Sunən ət-Tirmizi", 2323; bu hədis "həsən"dir, bax: "Silsilətul Əhadisis-Səhihə", 2797.
[2] "Camiul-Ulum vəl-Hikəm", 1/298.
[3] "Mustədrək əl- Hakim", 2/294.

*qullarına* namaz qılmağı, həccə getməyi, Kəbəni təvaf etməyi *və digər ibadətləri yerinə yetirməyi* buyurması, məhz Onu zikr etmək üçündür. Abidlərin ən üstünü isə öz ibadətində Allahı ən çox zikr edənidir. Bütün bu deyilənlərin məzəmmət edilmiş dünyaya heç bir aidiyyəti yoxdur. Dünyanın və onun sakinlərinin yaradılışındakı məqsəd də, məhz Allaha ibadət etməkdir. Bu xüsusda Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım."**[4]

İbn Qeyyim əl-Covziyyə ﷬ demişdir: "Peyğəmbər ﷺ Allahı zikr etmək xüsusunda yaradılanların ən kamili idi. Onun hər sözü Allahı zikr etmək və Onun rizasını qazanmaq üçün olmuşdur. Eləcə də, ümməti üçün qanuniləşdirdiyi – onlara buyurduğu əmrlər və qadağalar, həmçinin, Rəbbinin adları və sifətləri, Onun verdiyi hökmlər və gördüyü işlər, vədləri və təhdidləri barədə xəbər verməsi, habelə, Allahı tərifləməsi, Onun şənini uca tutması, Ona həmd etməsi, Onun pak və müqəddəs olduğunu təsdiqləməsi, Ona yalvarması və Ona dua etməsi, Ondan qorxması

[4] "əz-Zariyat" surəsi, 56.

və Onun mərhəmətinə ümid bəsləməsi ancaq Allahı zikr etmək üçün olmuşdur. Hətta onun susmağı belə, qəlbən Allahı zikr etməyinə aiddir. Rəsulullah ﷺ hər vaxt və hər bir halda – ayaq üstə də, oturaqlı halda da, uzanmış vəziyyətdə də, yol gedəndə də, minik üstündə də, səfərdə olanda da, qonaq qaldığı yerdə də, öz evində də davamlı olaraq Allahı zikr edərdi."[5]

İbn Qeyyim ﷺ həmçinin demişdir: "Qəlbdə elə bir sərtlik vardır ki, onu yalnız Allahı zikr etmək yumşalda bilər. Odur ki, insan öz qəlbinin sərtliyini Uca Allahı zikr etməklə müalicə etməlidir."[6]

Məkhul demişdir: "Allahı zikr etmək şəfa, insanları zikr etmək isə dərddir."[7]

**<u>Zikrin fəziləti</u>:**

Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahı çox zikr edin! Səhər-axşam Onun şəninə təriflər deyin!"[8]**

---

[5] "Zadul-Məad fi Hədyi Xayril-İbad", 2/332.
[6] "əl-Vabilus-Sayyib", 1/99.
[7] "əl-Vabilus-Sayyib", 1/99.
[8] "əl-Əhzab" surəsi, 41-42.

O, həmçinin buyurur: **"Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!"**[9]

O, həmçinin buyurur: **"Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini zikr et və qafillərdən olma."**[10]

O, həmçinin buyurur: **"Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır."**[11]

Peyğəmbər ﷺ demişdir: "Rəbbini zikr edən kimsə ilə Onu zikr etməyən kimsənin misalı, diri ilə ölünün misalına bənzəyir."[12]

Digər bir rəvayətdə o demişdir: "İçində Allah zikr edilən ev ilə içində Allah zikr edilməyən evin misalı, diri ilə ölünün misalına bənzəyir."[13]

O, həmçinin demişdir: "*Hər hansı* bir camaat oturub Allahı zikr edərsə, mələklər öz

---

[9] "əl-Bəqərə" surəsi, 152.
[10] "əl-Əraf" surəsi, 205.
[11] "ər-Rəd" surəsi, 28-29.
[12] "Səhih əl-Buxari", 6407.
[13] "Səhih Muslim", 779.

qanadları ilə onları əhatəyə alar, rəhmət onları bürüyər, onların üzərinə sükunət nazil olar və Allah onları Öz yanındakıların arasında yad edər."[14]

O, həmçinin demişdir: "Allahın yollarda dolaşıb, *Allahı* zikr edən insanları axtaran mələkləri vardır. Onlar Allahı zikr edən bir camaat gördükləri zaman bir-birilərini çağırıb: "Axtardığınızın yanına gəlin!"– deyirlər. Sonra onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alırlar. Elə həmin vaxt Rəbbi mələklərdən – *hər şeyi* onlardan daha yaxşı bildiyi halda soruşur: "Qullarım nə deyirlər?" *Mələklər*: "Onlar Sənin şəninə tariflər deyir, Səni uca tutur, Səni həmd-səna ilə təqdis edir və Səni olduqca çox təriflәyirlər"– deyə cavab verirlər. *Allah* soruşur: "Məgər, onlar Məni görüblərmi?" *Mələklər*: "Xeyr, vallahi ki, onlar Səni görməyiblər"– deyirlər. *Allah* soruşur: "Bəs, Məni görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Əgər onlar Səni görsəydilər, bundan da çox Sənə ibadət edər, Səni tərifləyər, Səni həmd-səna

[14] "Səhih Muslim", 2700.

ilə təqdis edər və Sənin şənini uca tutardılar." *Allah* soruşur: "Onlar Məndən nə istəyirlər?" *Mələklər* deyirlər: "Onlar Səndən Cənnəti istəyirlər." *Allah* soruşur: "Məgər, onlar Cənnəti görüblərmi?" *Mələklər* deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, onlar Cənnəti görməyiblər." *Allah* soruşur: "Bəs, onu görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Əgər onu görsəydilər, ona daha əzmlə can atar, onu daha inadla diləyər və onu daha çox rəğbətlə arzulayardılar." *Allah* soruşur: "Onlar nədən *Mənə* sığınırlar?" *Mələklər* deyirlər: "Cəhənnəm odundan." *Allah* soruşur: "Məgər, onlar Cəhənnəmi görüblərmi?" *Mələklər* deyirlər: "Xeyr, ey Rəbbimiz, vallahi ki, onlar Cəhənnəmi görməyiblər." *Allah* soruşur: "Bəs, onu görsəydilər, necə *olardı*?" *Mələklər* deyirlər: "Əgər onu görsəydilər, ondan daha uzağa qaçmağa çalışar və ondan daha çox çəkinərdilər." *Allah* buyurur: "Şahid olun ki, Mən onları bağışladım!" Bu vaxt mələklərdən biri deyir: "Bu camaatın arasında olan filankəs onlarla *yoldaşlıq edən kimsələrdən* deyildir, sadəcə olaraq öz ehtiyacı üzündən ora gəlmişdir."

*Onda, Allah* buyurur: “Bunlar elə insanlardır ki, onlarla oturan adam bədbəxt olmaz.”[15]

Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir dəfə Rəsulullah ﷺ Məkkəyə səfər edərkən yolda Cumdan adlanan dağın yanından keçdi və dedi: “Yolunuza davam edin. Bu, Cumdan dağıdır. Müfərridlər[16] *xeyirxah işlərdə* hamını ötüb keçmişlər.” Səhabələr soruşdular: “Kimlərdir müfərridlər, ya Rəsulullah?” O, dedi: “Allahı çox zikr edən kişilər və qadınlar.”[17]

Rəsulullah ﷺ demişdir: “Uca Allah buyurur: “Mən qulumun barəmdəki zənni yanındayam. Məni zikr etdikcə onunlayam. O Məni öz-özlüyündə yad etsə, Mən də onu Öz-Özlüyümdə yad edərəm. O Məni camaatın yanında yad etsə, Mən onu onlardan daha xeyirli toplumun (mələklərin) yanında yad edərəm. O Mənə bir qarış yaxınlaşsa, Mən ona bir ərəş[18] yaxınlaşaram. O Mənə bir ərəş yaxınlaşsa, Mən ona bir qulac yaxınlaşaram.

[15] “Səhih əl-Buxari”, 6408; “Səhih Muslim”, 8/68.
[16] Müfərrid: çoxluq içərisindən qurtulan tək kimsə.
[17] “Səhih Muslim”, 2676.
[18] Ərəş: Dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü.

O Mənə doğru yeriyərək gəlsə, Mən ona doğru yüyürərək gələrəm."[19]

Digər bir hədisdə Rəsulullah ﷺ Allahı zikr edən kimsəni belə müjdələmişdir: "Yeddi sinif insan vardır ki, Allah onları Öz kölgəsindən başqa bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir: *bunlar* ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər, gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: "Mən Allahdan qorxuram!"– deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və bir də xəlvətə çəkilib Allahı zikr etdikdən sonra gözləri yaşla dolan kimsə."[20]

Abdullah ibn Busr ؓ rəvayət edir ki, bir gün bədəvilərdən biri Peyğəmbərin ﷺ yanına gəlib: "*Ya Rəsulullah,* İslam ayinlərinin çoxluğu mənə ağır gəlir. Mənə elə bir şey öyrət ki, ondan bərk-bərk yapışım[21]"– demiş, Peyğəm-

---

[19] "Səhih əl-Buxari" 7455; "Səhih Muslim", 2675.
[20] "Səhih əl-Buxari", 660.
[21] Yəni ibadətləri yerinə yetirməyimi asanlaşdırsın.

bər ﷺ də ona belə buyurmuşdur: "Çalış, dilin daim Allahı zikr etməklə islaq qalsın!"[22]

Əziz müsəlmanlar! Bilin ki, Uca Allah hər kəsə, hər vaxt və hər bir halda Allahı zikr etməyi nəsib etmir. Müsəlmanlar özlərini hesaba çəksələr, görərlər ki, lənətlənmiş dünya onların bir çoxlarının başını qatmış, mal-dövlətin çoxluğu onların bir çoxlarını Allahı zikr etməkdən yayındırmış və şeytan onlara Allahı yad etməyi unutdurmuşdur. Onlardan bəziləri səhər-axşam zikrlərini buraxır, bəziləri namazdan sonrakı zikrləri yerinə yetirmir, hətta, bəzilərinin yemək yeyəndə, yaxud su içəndə belə "Bismilləh!" demək belə heç yadına düşmür, daha dəqiq desək, etdiyi günahların əvəzi olaraq, Allah onu bu gözəl ibadəti yerinə yetirməyə müvəffəq etmir. Bilin ki, müvəffəqiyyət hər şeyə qadir olan Allahın Əlindədir. Allahdan diləyimiz budur ki, Öz Peyğəmbərini ﷺ hər zaman və hər bir halda Rəbbini zikr etməyə müvəffəq etdiyi kimi, bizi də daim Rəbbimizi zikr etməyə müvəffəq etsin! Hər kim Allahın sevdiyi və razı qaldığı əməli yerinə yetirməyə müvəffəq olmaq

---

[22] "Musnəd İmam Əhməd", 4/190; bu hədis "səhih"-dir, bax: "Səhih əl-Cami", 7700.

istəyirsə, qoy, Rəsulullahın ﷺ Sünnəsindən möhkəm yapışsın və onun öz səhabəsi Muaz ibn Cəbələ ﷺ verdiyi nəsihəti yerinə yetirsin. Bir zaman Rəsulullah ﷺ ona belə buyurmuşdur: "Ey Muaz, sənə tövsiyəm budur ki, hər namazın sonunda bu duanı tərk etməyəsən:

(( اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ ))

"Allahummə, əinni alə zikrikə və şukrikə və husni ibadətik.[23]"[24]

Özündən başqa ibadətə layiq məbud olmayan Allaha and olsun ki, hansı bir müsəlman gündəlik olaraq hər namazın sonunda səmimi-qəlbdən belə dua etsə, Rəbbi ona hər zaman və hər bir halda Allahı yad etməyə müvəffəq edər, dili də daim Allahı zikr etməklə islaq qalar. Bu xüsusda, İbn Əbul-İz əl-Hənəfi ﷺ demişdir: "Bəndəni Allaha dua etməyə yönəldən məhz onun pak və müqəddəs

---

[23] Tərcüməsi: Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!

[24] "Sunən Əbu Davud", 1522; bu hədis "səhih"dir, bax: "Səhih Əbu Davud", 1362.

olan Rəbbidir. Bu xeyir Allahdandır, tamamı da Ona aiddir. Necə ki, Ömər ibn əl-Xattab ﷺ demişdir: "Mən duanın necə qəbul olunacağından narahat deyiləm. Mən ancaq dua etməyə müvəffəq olub-olmayacağımdan narahatam. Və əgər dua etməyə müvəffəq olaramsa, onun nəticəsini görməyə də müvəffəq olaram." Buna Uca Allahın bu ayəsini dəlil göstərmək olar: **"Allah göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da *bu işlər* sizin saydığınız *illərdən* min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir."**[25] Allah Subhanəhu və Təalə bu ayədə bildirir ki, bütün işləri O Özü idarə edir, sonra da həmin işlər Ona doğru yüksəlir. Elə bəndənin dua etmək istəyini onun qəlbinə salan və bu istəyi ona əta edəcəyi xeyiri əldə etməsi üçün bir səbəb edən də məhz Allahdır. Bir işi görmək və savab qazanmaq xüsusunda olduğu kimi. *Yəni,* bəndəni tövbə etməyə müvəffəq edən, sonra da onun tövbəsini qəbul edən Odur. Həmçinin, Öz qulunu bir işi görməyə müvəffəq edən, sonra da buna görə ona mükafat verən Odur. Eləcə də, Öz qulunu dua etməyə mü-

---

[25] "əs-Səcdə" surəsi, 5.

vəffəq edən, sonra da onu qəbul edən Odur. Yaradılanların heç biri bu işlərə təsir göstərə bilməz. Belə ki, Allah gördüyü bir işi, görəcəyi bir iş üçün səbəb edir. Möhtərəm tabiinlərdən biri Mutarrif ibn Abdullah ibn əş-Şixxir ﷺ demişdir: "Görəcəyim *bütün* işlərə nəzər saldım, gördüm ki, bunların başlanması da, tamamlanması da, Allahın istəyinə bağlıdır və baxdım ki, bunlara müvəffəq olmağın çarəsi ancaq dua etməkdir."[26]

Əzəmətli Allahdan Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bu işimizə bərəkət versin, onu səmimi-qəlbdən Onun Üzü xatirinə görülmüş əməllərdən etsin, onu Qiyamətədək oxunan kitablardan etsin, onun sayəsində müsəlmanlara, o cümlədən də bizə fayda versin, bizə savab qazandırsın və bizi Firdovs cənnətinin sakinlərindən etsin!

Dilədiyi kimsəni yaxşı işlər görməyə müvəffəq edən və doğru yola yönəldən məhz Allahdır. Bütün həmdlər yalnız aləmlərin Rəbbi Allaha məxsusdur. Muhəmməd peyğəmbərə ﷺ, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

---

[26] "Şərh əl-Əqidə ət-Təhaviyyə", 1/468-469.

## Ən fəzilətli zikrlər

İbn Teymiyyə ﷀ demişdir: "Sənin sualına – hansı əməlin fərz buyurulmuş əməllərdən sonra ən əfzəl əməllərdən sayıldığına dair verdiyin suala gəlincə, *bil ki,* əməllər fəzilət baxımından insanların gördükləri işlərdəki bacarıqlarına, üstəlik, bu işlərin onların vaxtına münasib olub-olmamasına görə fərqlənir. Odur ki, bu suala əhatəli və hər kəsə aid ediləcək cavabı vermək mümkün deyil. Lakin alimlərin yekdil rəyinə görə demək olar ki, davamlı olaraq Allahı zikr etmək, insanın ümumiyyətlə, məşğul olduğu ən əfzəl işlərdən sayılır. Buna da, Muslimin Əbu Hureyrədən ﷺ rəvayət etdiyi hədisi dəlil göstərmək olar. Həmin hədisdə Rəsulullah ﷺ: "Müfərridlər *xeyirxah işlərdə* hamını ötüb keçmişlər"– demiş və səhabələr: "Kimlərdir müfərridlər, ya Rəsulullah?"– deyə soruşduqda, Rəsulullah ﷺ demişdir: "Allahı çox zikr edən kişilər və qadınlar."[27] Həmçinin, Əbu Davudun Əbu Dərdadan ﷺ rəvayət etdiyi hədisi də dəlil göstərmək olar. Həmin hədisdə deyilir ki,

[27] "Səhih Muslim" 2676.

Peyğəmbər ﷺ səhabələrindən: "Sizə əməllərinizin ən xeyirlisi, Rəbbiniz yanında ən təmizi və dərəcələriniz arasında ən yüksək olanı, üstəlik, sizin üçün qızıl və gümüş sədəqə verməkdən, habelə, düşməninizlə qarşı-qarşıya gəlib onların boynunu vurmaqdan daha xeyirli olanı barədə xəbər verimmi?"– deyə soruşmuş, onlar da "Buyur, ya Rəsulullah!"– deyə cavab verdikdə, o demişdir: "*Bu,* Uca Allahı zikr etməkdir." [1] Bu mövzuya dair həm Quranda, həm də imanla bağlı istər bəsirət, istər varid olmuş xəbərlər, istərsə də, nəzəriyyədə bir çox dəlillər vardır. Adam ən azı xeyir müəllimi və müttəqilərin imamı sayılan Peyğəmbərdən ﷺ varid olmuş zikrləri vaxtlı-vaxtında yerinə yetirməlidir. Buna da, gündüzün əvvəlində və axırında, yatağa uzandıqda, yuxudan oyandıqda, habelə, namazdan sonra deyilən, vaxtı təyin edilmiş zikrləri, həmçinin, yeməyə və içməyə başladıqda, paltarı geydikdə, yaxınlıq etdikdə, evə, məscidə və ayaqyoluna daxil olduqda, habelə, evdən, məsciddən və ayaqyolundan

---

[1] "Sunən ət-Tirmizi", 3673; bu hədis "səhih"dir, bax: "Mişkatul-Məsabih", 2269.

çıxdıqda, yağış yağdıqda, göy guruldadıqda və başqa bu kimi hallarda deyilən ayrıca zikrləri misal çəkmək olar. Bu mövzuya dair "Əməlul-Yovm vəl-Leylə" adlı neçə-neçə kitablar yazılmışdır. Onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə, istənilən vaxt zikr etmək olar və bu zikrlərin ən fəzilətlisi "Lə ilahə illəllah" zikridir. Buna "Subhanəllah, vəlhəmdulilləh, vəllahu əkbər, vələ hovlə vələ quvvətə illə billəh!" sözünü artırdıqda bu zikrin fəziləti bir qədər də artmış olur. Onu da bilmək lazımdır ki, insanın Allaha yaxınlaşmaq məqsədilə, həm də, faydalı elm öyrənmək və onu başqalarına öyrətmək, habelə, insanlara yaxşı işlər görməyi buyurmaq və onları pis işlərdən çəkindirmək üçün dediyi hər kəlməsi və qəlbindən keçirdiyi hər bir fikri Allahı zikr etmək sayılır. Odur ki, hər kim vacib buyurulanları yerinə yetirdikdən sonra faydalı elm öyrənməklə məşğul olarsa, yaxud hər hansı bir məclisdə oturub Allahın və Onun rəsulunun ﷺ fiqh adlandırdığı elmdən öyrənərsə və ya bunu başqalarına

öyrədərsə, bu da, həmçinin, ən əfzəl zikrlərdən sayılar."[1]

Məlumdur ki, zikrlər fəzilət baxımından biri digərindən üstün sayılır. Bunların ən fəzilətlisi isə, əlbəttə ki, Allahın Kitabını oxumaq sayılır. İbn Teymiyyə ﷺ demişdir:[2] "Quran ən əfzəl zikrdir. Bu xüsusda, Uca Allah buyurur: **"Bu, bizim nazil etdiyimiz mübarək bir Zikrdir."**[3] O, həmçinin buyurur: **"Artıq sənə Öz tərəfimizdən Zikr vermişik."**[4] O, həmçinin, buyurur: **"Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirəcəyik."**[5] O, həmçinin buyurur: **"Onlara öz Rəbbindən bir Zikr gəldikdə, ona istehza edərək, qulaq asmazlar"**[6]

İbn Qeyyim əl-Covziyyə ﷺ demişdir: "Quran oxumaq zikr etməkdən əfzəl, zikr etmək də dua etməkdən əfzəl sayılır. Bu, ümumən belə olsa da, lakin bəzən zikr etmək Qu-

---

[1] "Məcmu əl-Fətavə", 10/660-661.
[2] "Məcmu əl-Fətavə", 23/285.
[3] "əl-Ənbiya" surəsi, 50.
[4] "Ta ha" surəsi, 99.
[5] "Ta ha" surəsi, 124.
[6] "əl-Ənbiya" surəsi, 2.

ran oxumaqdan əfzəl sayılır, hətta zikr üçün təyin edilmiş vaxtda onu Quran oxumaqla əvəz etmək caiz hesab edilmir. Buna, rükuda və səcdədə təsbih gətirməyi misal çəkmək olar. Belə ki, bu halda zikr etmək Quran oxumaqdan əfzəldir, hətta rükuda və səcdədə Quran oxumaq qadağan edilmişdir. Rükudan qalxdıqda və qalxıb dikəldikdə oxunan dualar, təşəhhüdü oxumaq, iki səcdə arasında "Rabbiğfirli vərhəmni vəhdini və afini vərzuqni" demək, namazı bitirib salam verdikdən sonra deyilən zikrlər və müəzzinin dediklərini təkrarlamaq da, həmçinin, Quran oxumaqdan əfzəldir. Hərçənd, Uca Allah bütün məxluqatdan üstün olduğu kimi, Quran da hər bir kəlamdan üstün sayılır, lakin hər bir məqamda deyiləcək zikrlər vardır ki, onları yerli-yerində, vaxtlı-vaxtında yerinə yetirməmək, birini başqası ilə əvəz etmək, hikmətsizlik etmək və tələb olunan faydanı itirmək deməkdir. Eləcə də, müəyyən vaxtlarda faydalı zikrlər etmək, ümumən, Quran oxumaqdan, habelə, Quran oxumaq, ümumən zikr etməkdən daha əfzəl sayılır."[1]

---

[1] "əl-Vabilus-Sayyib", 1/122.

Əhməd Şihabuddin ibn Həcər əl-Heytəmi ﷺ demişdir: "Şəriətin, oxunması üçün müəyyən bir vaxt və ya hal təyin etmədiyi ən əfzəl zikr Quran oxumaqdır. Ondan sonra ən fəzilətli zikr "Lə ilahə illəllah" kəlməsidir."[1]

Zeynuddin Abdur-Rauf əl-Munavi ﷺ demişdir: "Quran oxumaqla məşğul olmaq digər zikrlərlə məşğul olmaqdan daha əfzəldir. Yalnız müəyyən vaxtlarda deyilməsi xüsusiləşdirilmiş zikrlər müstəsnadır."[2]

**Quranın fəziləti:**

Əvvəlki peyğəmbərlərin möcüzələrini yalnız onlarla bir dövrdə yaşamış insanlar görmüş və onlardan sonra gələnlərə həmin möcüzələrin baş verdiyini inandırmaq çətin olmuşdur. Muhəmməd Peyğəmbərin ﷺ möcüzəsi isə Qiyamətədək qalacaq Qurandır. Bu mübarək Kitabın nə dərəcədə üstün və fəzilətli bir Kitab olduğu isə aşağıdakı ayə və hədislərdə öz əksini tapmışdır:

---

[1] "əl-Fətavə əl-Hədisiyya", 1/230.
[2] "Feydul-Qədir Şərh əl-Cami əs-Səğir", 2/57.

Uca Allah buyurur: **"Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır."**[1]

O, həmçinin buyurur: **"De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün *bir yerə* toplaşıb, bir-birinə kömək etsələr belə, ona bənzərini gətirə bilməzlər."**[2]

O, həmçinin buyurur: **"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik."**[3]

O, həmçinin buyurur: **"Həqiqətən, bu *Quran, haqqı batildən* ayırd edən bir kəlamdır."**[4]

O, həmçinin buyurur: **"Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır."**[5]

O, həmçinin buyurur: **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."**[6]

O, həmçinin buyurur: **"Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğ-**

---

[1] "əl-Bəqərə" surəsi, 2.
[2] "əl-İsra" surəsi, 88.
[3] "əl-Maidə" surəsi, 48.
[4] "ət-Tariq" surəsi, 13.
[5] "əl-Ənam" surəsi, 155.
[6] "əl-Hicr" surəsi, 9.

**ru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik."**[1]

Rəsulullah ﷺ demişdir: "Peyğəmbərlər arasında elə bir peyğəmbər olmamışdır ki, ona bəşəriyyətin inandığı möcüzələrdən *bir və ya daha çox möcüzə* verilmiş olmasın. *Möcüzə olaraq* mənə verilmiş şey isə Allahın mənə vəhy etdiyi *Qurandır*. Odur ki, Qiyamət günü mənim ardıcıllarımın onların ardıcıllarının hamısından çox olacağına ümid edirəm."[2]

O, həmçinin demişdir: "Quran oxuyun! Çünki Qiyamət günü o gəlib özününkülərin[3] tərəfini saxlayacaq. Çiçəklənən iki surəni – "əl-Bəqərə" və "Ali-İmran" surələrini oxuyun! Çünki Qiyamət günü onlar iki bulud və ya cərgələrə düzülmüş iki qatar quş kimi gəlib özününkülərin tərəfini saxlayacaq. "əl-Bəqərə" surəsini oxuyun! Çünki onda xeyir-bərəkət, onsuz olmaqda isə peşmanlıq var, həm də sehrbazlar onunla bacara bilməzlər."[4]

İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ insanların ən səxavətlisi idi. Ramazan ayında

---

[1] "ən-Nəhl" surəsi, 89.
[2] "Səhih Muslim", 385.
[3] Yəni onu oxuyub əməl edənlərin.
[4] "Səhih Muslim", 1910.

– ayın əvvəlindən axırınadək daha səxavətli olardı. Cəbrail *Ramazan ayının hər gecəsi* Peyğəmbərin ﷺ yanına gələr və Peyğəmbər ﷺ Quranı ona oxuyardı. Cəbrail ilə görüşdüyü zaman isə Peyğəmbər ﷺ xeyirxah işlər görməkdə sərbəst əsən küləkdən daha comərd olardı.[1]"[2]

Rəsulullah ﷺ demişdir: "Quranı öyrənin! *Bu Kitabı* öyrəndikdən sonra onda ifrata varmayın, ona laqeyd yanaşmayın, onun sayəsində pul qazanmayın, onun sayəsində mal-dövlətinizi artırmayın!"[3]

O, həmçinin demişdir: "Ağsaqqal müsəlmana sayğı göstərmək, habelə, Quranda ifrata varmadan və ona laqeyd yanaşmadan onu daşıyana[4] hörmət qoymaq və bir də ədalətli

---

[1] Bundan belə nəticə çıxır ki, başqa aylardan fərqli olaraq ramazan ayında Quranı daha çox oxumaq Sünnədir. Hədisdən o da aydın olur ki, xeyirxah insanlarla oturub-durmaq, üstəlik Quran oxumaq adamı xeyirxah işlər görməyə təşviq edir.

[2] "Səhih əl-Buxari", 6; "Səhih Muslim", 2308.

[3] "Sunən ən-Nəsai", 990; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 3057.

[4] Burada "Quranı daşıyan" deyildikdə, onu əzbərləyən və düzgün qaydada oxuyan, habelə, mənasını başa

ixtiyar sahibinin hörmətini saxlamaq, Allahı uca tutmaq deməkdir."[1]

Rəvayət edilir ki, Abdullah ibn Amr ibn əl-As ﷺ demişdir: *"Bir vaxt* atam məni zadəgan bir qadınla evləndirdi. Sonra o, mütəmadi olaraq gəlininin yanına gəlib ondan əri[2] barədə soruşar, qadın da hər dəfə ona deyərdi: "O, xoşxasiyyət adamdır, lakin mən ona ərə gəldiyim gündən bəri o, nə mənimlə bir yatağa baş qoymuş, nə də mənə toxunmuşdur." Bu hal o vaxta qədər davam etdi ki, axırda atam bu haqda Peyğəmbərə ﷺ xəbər verdi və Peyğəmbər ﷺ *ona*: "Qoy *oğlun* mənim yanıma gəlsin!"– dedi. Bundan sonra mən Peyğəmbərin ﷺ yanına getdim və o *məndən* soruşdu: "Sən necə oruc tutursan?" Dedim: "Hər gün." Soruşdu: "Quranı necə xətm edirsən?" Dedim: "Hər gecə." Onda o belə buyurdu:

---

düşən və öyrəndiklərinə əməl edən qarilər nəzərdə tutulur.

[1] "Sunən Əbu Davud", 4834; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 2199.

[2] Abdullah ibn Amr ﷺ özünü qəsd edir.

"Hər ay üç gün oruc tut, Quranı da ayda bir dəfə xətm et!"[1]

Digər rəvayətdə Abdullah ibn Amr ﷺ demişdir: "Peyğəmbər ﷺ mənə: "Quranı hər ayda bir dəfə xətm et!"– deyə buyurdu. Mən dedim: "Ey Allahın peyğəmbəri, mənim bundan da çox *oxumağa* gücüm çatar." Peyğəmbər ﷺ buyurdu: "Onu hər iyirmi gündə bir dəfə xətm et!" Mən dedim: "Ey Allahın peyğəmbəri, mənim bundan da çox *oxumağa* gücüm çatar." Peyğəmbər ﷺ buyurdu: "Onu hər on gündə bir dəfə xətm et!" Mən dedim: "Ey Allahın peyğəmbəri, mənim bundan da çox *oxumağa* gücüm çatar." Peyğəmbər ﷺ buyurdu: "Onu hər yeddi gündə bir dəfə xətm et və buna heç nə əlavə etmə! Zövcənin sənin üzərində haqqı vardır, qonağının sənin üzərində haqqı vardır, bədəninin sənin üzərində haqqı vardır."

Abdullah ibn Amr dedi: "Mən çətinləşdirdim deyə, mənim üçün çətinləşdi."

Peyğəmbər ﷺ mənə dedi: "Nə bilirsən, bəlkə sənin ömrün uzandı!"

[1] "Səhih əl-Buxari", 5052.

Abdullah ibn Amr dedi: "Peyğəmbərin ﷺ təxmin etdiyi kimi oldu. Mən qocalığın düşkün çağına yetişdikdə: "Kaş Peyğəmbərin ﷺ verdiyi rüsxəti qəbul edərdim"– deyə təmənna etdim."[1]

Abdullah ibn Amr رضي الله عنه demişdir: "Rəsulullah ﷺ mənə: "Quranı ayda bir dəfə xətm et"– deyə buyurdu. Mən dedim: "*Ya Rəsulullah,* mənim *bundan da çox oxumağa* gücüm çatar." Onda o buyurdu: "Onu üç günə xətm et!"[2]

Rəsulullah ﷺ demişdir: "Hər kim Quranı üç gündən tez bir zamanda oxuyarsa, onu başa düşməz!"[3]

Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ Quranı üç gündən tez xətm etməzdi!"[4]

Rəsulullah ﷺ demişdir: "Allahın Kitabını öyrənin, içində buyurulanlara əməl edin və onu avazla oxuyun! Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, bu Quran, ipin-

---

[1] "Səhih Muslim", 2787.

[2] "Səhih Əbu Davud", 1391; bu hədis "həsən-səhih"dir, bax: "Səhih Əbu Davud", 1258.

[3] "Musnəd İmam Əhməd", 2/164; bu hədis "səhih"-dir, bax: "Mişkatul-Məsabih", 2201.

[4] "Təbəqat İbn Səd", 1/376; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 4866.

dən açılmış və öz sahibindən qaçmış dəvədən daha tez *öz sahibini* tərk edər."[1]

O, həmçinin demişdir: "Birinizin: "Filan və filan ayəni unutmuşam"– deməsi necə də pisdir! Əksinə, bu ona unutdurulmuşdur. Elə isə Quranı *təkrar-təkrar* öyrənməyə davam edin! Çünki Quran, kəndirdən qırılıb qaçan heyvandan da tez insanların qəlbini tərk edir."[2]

O, həmçinin demişdir: "Quranı əzbərdən bilən adam dəvələrini buxovda saxlayan kimsəyə bənzəyir. Əgər bu adam onları bu vəziyyətdə saxlasa, onları daim özündə saxlamış olar, yox, əgər başlı-başına buraxsa, onlar qaçıb gedərlər."[3]

O, həmçinin demişdir: "Mən sizə iki ağır şey qoyub gedirəm: biri, Allahın Kitabıdır. Bu, Allahın ipidir, kim ondan möhkəm tutsa, doğru yola yönələr, kim də onu buraxsa, zəlalətə düşər."[4]

---

[1] "Musnəd İmam Əhmәd", 4/150; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 3285.
[2] "Səhih əl-Buxari", 5032.
[3] "Səhih əl-Buxari", 5031.
[4] "Səhih Muslim", 2408.

O, həmçinin demişdir: "Sevinin! Sevinin! Məgər, siz Allahdan başqa *haqq* məbudun olmadığına və mənim Allahın Rəsulu olduğuma şahidlik etmirsiniz?" Səhabələr: "Bəli!"– deyə cavab verdikdə, o demişdir: "Bu Quran bir ipdir. Onun bir ucu Allahın Əlində, digəri də sizin əlinizdədir. Ondan möhkəm yapışın. Heç şübhəsiz ki, ondan sonra heç vaxt zəlalətə düşməz və əsla həlak olmazsınız."[1]

Rəvayət edilir ki, bir dəfə İmran ibn Husayn ﷺ Quran oxuyan, sonra da *bunun əvəzinə camaatdan yeməyə bir şey* istəyən bir adamın yanından keçdi və "İnna lillahi və inna ileyhi raciun!"[2] deyə etirazını bildirdi. Sonra dedi: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: "Qoy Quran oxuyan adam dilədiyini onun vasitəsilə Allahdan istəsin.[3] Həqiqətən,

---

[1] "Səhih İbn Hibban", 122; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 713.

[2] **"Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"** Bu sözlər təəccüb doğuran bir şey gördükdə və ya hər hansı bir müsibət üz verdikdə deyilir. Əslində bu, "əl-Bəqərə" surəsinin 156-cı ayəsidir. .

[3] Yəni Quran sayəsində Allahdan dünya və Axirət nemətlərini istəsin (Tohfətul-Əhvəzi).

*vaxt gələcək* elə insanlar ortaya çıxacaq ki, onlar Quran oxuyacaq və buna görə insanlardan əvəz[1] istəyəcəklər."[2]

Həmçinin, Rəsulullah ﷺ demişdir: "*Hər hansı* bir camaat Allahın evlərindən birində yığışıb Allahın Kitabını oxusa və onu bir-birinə öyrətsə, onların üzərinə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər öz qanadları ilə onları əhatəyə alar və Allah onları Öz yanındakıların arasında yad edər."[3]

O, həmçinin demişdir: "Quran sənin, ya lehinə, ya da əleyhinə bir hüccətdir.[4]"[5]

O, həmçinin demişdir: "Allah bu Kitab sayəsində insanların bir qismini ucaldacaq, digərlərini isə alçaldacaqdır."[6]

---

[1] Əvəz: qarşılıq, mükafat, muzd, haqq.

[2] "Sunən ət-Tirmizi", 2917; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 6467.

[3] "Səhih Muslim", 8/71.

[4] Yəni əgər mömin bəndə Quranın buyurduqlarına əməl edib qadağan etdiklərindən çəkinərsə, həmin bəndə qəbirdə sorğu-suala çəkilərkən, məhşər günü haqq-ədalət tərəziləri qoyularkən və Allahın hüzuruna gətirilərkən, Quran onun lehinə, əks halda isə əleyhinə şahidlik edər (Şərh ən-Nəvəvi).

[5] "Səhih Muslim", 223.

[6] "Səhih Muslim", 1934.

O, həmçinin demişdir: "Qiyamət günü Quran gəlib *onu oxuyan adam üçün*: "Ey Rəbbim, ona bəzək ver!"– deyəcək və dərhal həmin adamın başına kəramət tacı qoyulacaq. Sonra o: "Ey Rəbbim, onun bəzəyini artır!"– deyəcək. Onda, ona kəramət əbası geyindiriləcək. Sonra o: "Ey Rəbbim, ondan razı qal!"– deyəcək və Rəbbi ondan razı qalacaq. Sonra ona belə buyurulacaq: "Oxu, yüksəl! Hər bir ayəyə görə sənin gözəlliyin artacaqdır!"[1]

O, həmçinin demişdir: "Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim Quran oxuyan adam isə iki savab qazanar."[2]

O, həmçinin demişdir: "Quranı avazla oxumayan kəs bizdən deyildir.[3]"[4]

O, həmçinin demişdir: "Quranı öz səsinizlə gözəlləşdirin! Şübhəsiz ki, gözəl səs Quranın ancaq gözəlliyini artırar!"[1]

---

[1] "Sunən ət-Tirmizi", 2915; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 8030.

[2] "Səhih əl-Buxari", 4937; "Səhih Muslim", 797.

[3] Yəni bizim yolumuzu tutub gedən müsəlmanlardan deyil.

[4] "Səhih əl-Buxari", 7089.

O, həmçinin demişdir: "Gözəl səs Quranın zinətidir!"[2]

Abdullah ibn Bureydə öz atasından[3] belə rəvayət etmişdir: "*Bir dəfə* Əbu Musa Quran oxuyarkən Peyğəmbər ﷺ məscidə gəldi və *məndən*: "Bu kimdir?"– deyə soruşdu. Mən dedim: "Canım sənə qurban, *ya Rəsulullah*, mənəm Bureydə!" O dedi: "Buna[4] Davudun ﷺ səsi tək məlahətli bir səs bəxş edilmişdir."[1]

---

[1] "Musnəd əd-Darimi", 3501; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 3145.

[2] "əl-Mocəmul-Kəbir", 10023; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1815.

[3] Əbu Abdullah Bureydə ibn Husayb ibn Abdullah əl-Əsləmi ؓ Peyğəmbərin ﷺ səhabəsidir.

[4] Burada, Peyğəmbər ﷺ Əbu Musa əl-Əşarini ؓ qəsd edirdi. Allah bu səhabəyə cavan yaşlarında məşhur qarilərdən olmağı nəsib etmişdir. Hədislərin birində rəvayət edilir ki, Bureydə demişdir: "Bir gecə mən məscidə gəldim və Rəsulullahın ﷺ məscidin qapısının önündə durduğunu gördüm. Sonra baxdım ki, bir nəfər məsciddə namaz qılır *və yüksək səslə Quran oxuyur*. Elə bu vaxt Rəsulullah ﷺ məndən soruşdu: "Ey Bureydə, səncə, bu adam özünü göstərir?" Dedim: "Allah və Onun Rəsulu daha yaxşı bilir!" Onda Rəsulullah ﷺ belə buyurdu: "Xeyr, bu adam əsl mömindir. Ona, Davudun səsi kimi məlahətli bir səs bəxş edilmişdir!" Sonra mən məscidə daxil oldum və gördüm ki, bu, Əbu Musa əl-Əşaridir" (Musnəd Əhməd, 5/349). Rəvayətlərin birində, Əbu

Rəvayət edilir ki, *bir dəfə* gecə Useyd ibn Hudeyr ﷺ "əl-Bəqərə" surəsini oxuyurdu, atı da onun yanında yerə bağlanılmışdı. Birdən at təşvişə düşüb şahə qalxdı. *Bunu görəndə* Useyd susdu, at da sakitləşdi. Sonra o, oxumağına davam elədi və at yenə təşvişə düşüb şahə qalxdı. O susdu, at da sakitləşdi. Sonra o, yenidən oxumağa başladı və at yenə də həyəcanlanıb şahə qalxdı. Bundan sonra o, daha oxumadı. Həmin vaxt *Useydin* oğlu Yəhya atın yaxınlığında idi və o, qorxdu ki, at onu tapdalayar. Useyd uşağı yanına çəkdikdən sonra başını göyə qaldırdı, lakin aydın bir şey görə bilmədi. Səhəri gün o bu hadisəni Peyğəmbərə ﷺ danışdı. Peyğəmbər ﷺ *ona*: "Oxu, ey İbn Hudeyr! Oxu, ey İbn Hudeyr!"– deyə buyurdu.

---

Osman ən-Nəhdi onu tərif edib demişdir: "Mən Əbu Musanın səsi kimi gözəl bir səs eşitməmişəm. Onun səsi məlahətli olduğundan, bizə namaz qıldırdığı zaman istəyərdik ki, o, "əl-Bəqərə" surəsini oxusun" (Siyəru Əlamun-Nubələ, 3/345).

[1] "Səhih Muslim", 1887; İmam Nəsainin "əs-Sunən əl-Kubra" əsərindəki (5/23/8058) eynimənalı bu hədisin tamamında deyilir ki, "Səhəri gün Peyğəmbərin ﷺ bu sözü barədə Əbu Musaya xəbər verildikdə, o demişdir: "Ya Rəsulullah, əgər mən sənin mənə qulağ asdığını bilsəydim, Quranı daha gözəl səslə oxuyardım."

Useyd dedi: "Ya Rəsulullah, Yəhya atın yanında idi və mən qorxdum ki, at onu tapdalayar, odur ki, başımı qaldırıb ona tərəf getdim. Sonra başımı göyə qaldırıb buluda oxşar bir şey, içərisində də qəndillərə[1] bənzər şeylər gördüm. Sonra onlar yox olub getdilər." Peyğəmbər ﷺ soruşdu: "Bilirsənmi o nə idi?" Useyd: "Xeyr!"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Bu, mələklər idi, sənin səsinə qulaq *asmaq üçün* yaxınlaşmışdılar. Əgər sən oxumağına davam etsəydin, səhər tezdən hamı onları görərdi və onlar insanlardan gizlənməzdilər."[2]

Rəsulullah ﷺ demişdir: "Quran oxuyan və ona əməl edən mömin narıncıya[3] bənzəyir, onun dadı da xoşdur, iyi də. Quran oxumayan, amma ona əməl edən mömin xurmaya bənzəyir, onun dadı gözəldir, amma iyi yoxdur. Quran oxuyan münafiqin məsəli reyhan bitkisinə bənzəyir, onun iyi gözəl olsa da, dadı acıdır. Quran oxumayan münafiqin məsəli acı qovuna bənzəyir, onun iyi xoşagəlməzdir, dadı da acıdır."[4]

---

[1] Asma çıraq.
[2] "Səhih əl-Buxari", 5018.
[3] Xoşiyli sitrus meyvəsi.
[4] "Səhih əl-Buxari", 5059.

O, həmçinin demişdir: "Kim Allahın Kitabından bir hərf oxusa, buna görə savab qazanar və bu savab on savaba bərabər olar. Mən demirəm ki, "əlif, ləm, mim" bir hərfdir. Lakin əlif bir hərf, ləm bir hərf, mim də bir hərfdir."[1]

O, həmçinin demişdir: "Niyə sizdən biriniz məscidə gedib Allahın Kitabından iki ayə öyrənmir və ya iki ayə oxumur ki, bu onun üçün iki dəvədən[2] daha xeyirli olsun. Üç *ayə* onun üçün üç *dəvədən*, dörd *ayə* də onun üçün dörd *dəvədən* daha xeyirlidir. Bunların sayını artırdıqca, savabı da artmış olar."[3]

O, həmçinin demişdir: "Qiyamət günü Quran sahibinə belə buyurulacaq: "Oxu, yüksəl! Dünyada oxuduğun kimi avazla oxu. Çünki sənin mənzilin dünyada ikən oxuduğun son ayənin yanında olacaq."[4]

---

[1] "Sunən ət-Tirmizi", 2910; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 6469.

[2] Yəni iki dəvə sədəqə verməkdən.

[3] "Səhih Muslim", 2/197.

[4] "Sunən Əbu Davud", 1464; Muhəmməd Nasirəddin əl-Albani ﷺ də "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2240) bu hədisin "səhih" olduğunu bildirmiş, sonra (5/284) demişdir: "Bil ki, bu hədisdə: **"Quran sahibi"** deyildikdə, onu əzbər bilən hafizlər nəzərdə tutulur."

Rəsulullah ﷺ demişdir: "Sizin ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir."[1]

O, həmçinin demişdir: "Quran, *Qiyamət günü* havadarlığı qəbul olunacaq şəfaətçi, həm də çatdırdığı xəbərləri təsdiqlənəcək xəbərçidir. Kim onu önünə alarsa, o onu Cənnətə aparar. Kim də onu arxasına atarsa, o onu Cəhənnəmə sürükləyər."[2]

---

Başqa bir hədisdə Rəsulullah ﷺ demişdir: "Qoy, Quranı ən yaxşı oxuyanınız namazda camaata imamlıq etsin..." yəni Quranı əzbərdən ən çox biləniniz. Həmçinin, Cənnətdə olan dərəcələr arasındakı üstünlük, onun həmin gün Qurandan daha çox oxuduğuna görə yox, məhz dünyada əzbər bildiyi ayələrin çoxluğuna görə olacaq. Bu hədis hafizlərin fəzilətinə dəlalət edir. Lakin bir şərtlə ki, onun hafizliyi dünya malı üçün, dinar və dirhəm üçün yox, ixlasla Allah rizası üçün olsun. Yoxsa Rəsulullahın ﷺ bu sözü ona aid ediləcək: "Ümmətim arasındakı münafiqlərin çoxu qarilər olacaq." (Bax: Silsilətul-Əhadisis-Səhihə, 750).

[1] "Səhih əl-Buxari", 5027.

[2] "Səhih İbn Hibban", 1793; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2019.

O, həmçinin demişdir: "Kim bir gecədə yüz ayə oxuyarsa, qafillərdən sayılmaz və ya itaətkarlardan hesab olunar."[1]

O, həmçinin demişdir: "İnsanlar arasında Allahın əzizləri vardır." Səhabələr soruşdular: "Kimlərdir onlar, ya Rəsulullah?" O dedi: "Quran əhli.[2] Onlar Allahın əzizləri və Onun ən yaxınlarıdır."[3]

Rəvayət edilir ki, bir nəfər Əbu Səid əl-Xudrinin ﷺ yanına gəlib: "Mənə nəsihət et!"– dedi. Əbu Səid dedi: "Sənin soruşduğunu, bir zaman mən Rəsulullahdan ﷺ soruşmuşdum. O da mənə belə buyurmuşdur: "Sənə Allahdan qorxmağı tövsiyə edirəm, çünki bu, hər bir xeyirin başıdır. Həmçinin, sənə *Allah yolunda* vuruşmağı tövsiyə edirəm, çünki bu, İslamdakı abidlikdir. Habelə, sənə Allahı zikr etməyi və Quran oxumağı tövsiyə edirəm, çünki bu,

---

[1] "Səhih İbn Xuzeymə", 1793; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 643.

[2] Yəni Quranı əzbər bilən, gecə-gündüz onu oxuyan və ona əməl edən kimsələr.

[3] "Musnəd İmam Əhməd", 1/556; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisid-Daifə", 1582.

göydə sənin üçün bir rahatlıq, yerdə də adının təriflə zikr olunması üçün bir səbəbdir."[1]

Rəsulullah ﷺ demişdir: "Yalnız iki şəxsə həsəd aparmaq olar: O şəxsə ki, Allah ona Quranı öyrətmiş, o da, onu gecə-gündüz oxuyur. Qonşusu da bunu eşidib deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim..."[2]

Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ Uhud döyüşündə şəhid olanları dəfn edərkən iki səhabəni bir qəbirə qoydu və: "Bunlardan hansı biri Qurandan daha çox surə bilir?"– deyə soruşdu. Ona Quranı daha çox biləni göstərdikdə, əvvəlcə onu, sonra da o birisini qəbirə qoydu."[3]

Rəsulullah ﷺ demişdir: "Əgər bu Quran dəriyə yazılıb sonra oda atılsa, yanmaz."[4]

Ömər ibn əl-Xattab رضي الله عنه demişdir: "Quran oxuyanlar sizi aldatmasın! Bu, sadəcə, onların

[1] "Musnəd İmam Əhməd", 3/82; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 555.
[2] "Səhih əl-Buxari", 5026.
[3] "Səhih əl-Buxari", 1282; "Səhih Muslim", 2296.
[4] "Sunən əd-Darimi", 2/430; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 3562.

oxuduğu bir kəlamdır. Lakin siz ona əməl edənlərə diqqət yetirin."[1]

Abdullah ibn Məsud ﷺ demişdir: "Hər kim Allahı və Onun rəsulunu ﷺ sevdiyini bilmək istəyirsə, qoy baxsın, əgər Quranı sevirsə, demək Allahı və Onun rəsulunu ﷺ sevir."[2]

O, həmçinin demişdir: "Şəfa verən iki şeydən – Qurandan və baldan istifadə edin!"[3]

Bu rəvayətlərdən bizə aydın olur ki, zikrlərin ən fəzilətlisi Quranı layiqincə oxumaqdır. Bu xüsusda, Uca Allah buyurur: **"Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar."**[4]

Abdullah ibn Məsud ﷺ, Abdullah ibn Abbas ﷺ və qeyriləri bu ayəni izah edib demişlər: "Ona layiqincə əməl edirlər."[5]

Həsən əl-Bəsri ﷺ demişdir: "Bu Quranı kölələr də oxuyur, uşaqlar da. Onlar nə ona layiqincə əməl edir, nə də onun mənasını başa düşürlər. Doğrusu, Quran əhlindən olmağa ancaq o kəs layiqdir ki, Quranda buyurulanlar onun əməlində öz əksini tapsın. Allah

---

[1] "İqtida əl-İlmi əl-Aməl", 109.
[2] "Şoəbul-İman", 1861.
[3] "Səhih İbn Macə", 2781.
[4] "əl-Bəqərə", 121.
[5] "Təfsir İbn Kəsir".

Öz Kitabında belə buyurur: **"*Bu* mübarək Kitabı sənə nazil etdik ki, *insanlar* onun ayələrini düşünüb anlasınlar və ağıl sahibləri də ondan ibrət götürsünlər."**[1] Quranın ayələrini anlayanlardan olmaq üçün isə ona əməl etmək gərəkdir. *Saxtakar qarilərdən* biri o birinə: "Gəl, sənə Quran oxuyum, dinlə"– deyir. Vallahi, əsl qarilər belə etməzdilər. Vallahi ki, bunlar nə qari, nə də zahiddirlər. Allah camaat arasında belələrinin sayını artırmasın!"[2]

Allahım, biz Sənin qulunuq, qulunun oğluyuq, kənizinin oğluyuq! Bizi idarə etmək Sənin Əlindədir, barəmizdə verdiyin hökm yerinə yetəndir, bizə yazdığın tale ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında olan qeyb elmində saxladığın Özünə aid olan hər bir adla yalvarırıq ki, Quranı qəlbimizin baharı və köksümüzün nuru et, üzüntümüzün aradan qalxması və kədərimizin getməsi üçün səbəb et!

---

[1] "Sad" surəsi, 29.
[2] "Musənnəf Abdur-Rəzzaq", 5984.

Allahın Kitabından sonra ən fəzilətli zikr Peyğəmbər ﷺ və bütün peyğəmbərlərin dediyi:

(( لَا إِلَهَ إِلاَّ اللهُ ))

"Lə ilahə illəllah!"[1]

kəlməsidir.

Bu, tovhid kəlməsidir və o, gündəlik olaraq təkrar-təkrar zikr edilməsi bəyənilən ən gözəl zikrdir. Bu kəlmənin fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Həmin hədislərin hamısını bu balaca kitabçada cəm etmək mümkün deyil. Odur ki, Peyğəmbərimizdən ﷺ varid olmuş rəvayətlərin bəzisi ilə kifayətlənək:

Rəsulullah ﷺ demişdir: "Ən fəzilətli zikr "Lə ilahə illəllah!" və ən fəzilətli dua "Əlhəmdulilləh"dir.[2]"[3]

---

[1] Tərcüməsi: Allahdan başqa *haqq* məbud yoxdur.
[2] Tərcüməsi: Həmd Allaha məxsusdur!
[3] "Sunən ət-Tirmizi", 3680; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1497.

O, həmçinin demişdir: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunun ən üstünü – "Lə ilahə illəllah!" kəlməsidir..."[1]

O, həmçinin demişdir: "Kim "Lə ilahə illəllah!" desə və Allahdan qeyrisinə ibadət etməyi inkar etsə, onun malı və canı toxunulmaz olar. *Gizli əməllərinin* haqq-hesabı isə Allaha aiddir."[2]

O, həmçinin demişdir: "Kim "Lə ilahə illəllah!" desə, Cənnətə daxil olar."[3]

O, həmçinin demişdir: "Allahın Üzünü diləyərək, "Lə ilahə illəllah!" deyən bir bəndəyə Qiyamət günü Allah Cəhənnəm odunu haram edər."[4]

O, həmçinin demişdir: "Hər kim sübh namazından sonra yüz dəfə "Subhanəllah!"[5] və yüz dəfə "Lə ilahə illəllah!" desə, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanar."[6]

---

[1] "Səhih Muslim", 153.
[2] "Səhih Muslim", 130.
[3] "Səhih İbn Hibban", 151; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2355.
[4] "Səhih əl-Buxari", 6423.
[5] Tərcüməsi: Allah pak və müqəddəsdir!
[6] "Səhih ən-Nəsai", 1354.

O, həmçinin demişdir: "Allahın peyğəmbəri Nuh ﷺ ölüm ayağında ikən oğluna belə demişdi: "Mən sənə vəsiyyət etmək istəyirəm: sənə iki şeyi əmr edir və iki şeyi qadağan edirəm. Sənə "Lə ilahə illəllah"ı əmr edirəm. Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə və "Lə ilahə illəllah" digər gözünə qoyulsa, bu kəlmə onlardan ağır gələr. Və əgər yeddi göy və yeddi yer ucsuz-bucaqsız bir halqa olsaydı, "lə ilahə illəllah" onu yarıb keçərdi..."[1]

O, həmçinin demişdir: "Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona *içində əməlləri yazılmış* doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra qüdrətli və qüvvətli Allah buyuracaq: "Bunlardan birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan gözətçi mələklərim sənə zülm ediblərmi? Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Ək-

[1] "Musnəd İmam Əhməd", 1/169-170; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 134.

sinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək." Bu vaxt onun qarşısına içində "Əşhədu ən lə iləhə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluh!"[1] yazılmış bir kağız parçası qoyulacaq. O deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qabağında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq."[2]

O, həmçinin demişdir: "Adam böyük günahlardan uzaq duraraq, səmimi-qəlbdən "Lə ilahə illəllah!" desə, onun üçün göy qapıları açılar və bu kəlmə Ərşə doğru yüksələr."[3]

O, həmçinin demişdir: "Ən xeyirli dua Ərəfat günü edillən duadır və ən xeyirli söz,

---

[1] Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və Muhəmməd Onun qulu və elçisidir.

[2] "Musnəd İmam Əhməd", 2/213; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 135.

[3] "Sunən ət-Tirmizi", 3590; bu hədis "həsən"dir, bax: "Mişkatul-Məsabih", 2314.

mənim və məndən əvvəlki peyğəmbərlərin dediyi bu sözdür:

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

“Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir.[1]”[2]

Rəsulullah ﷺ demişdir: “Hər kim bazara daxil olduqda:

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ وَهُوَ حَيٌّ لاَ يَمُوتُ، بِيَدِهِ الْخَيْرُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

“Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmd, yuhyi və yumitu və huvə həyyun lə yəmut, biyədihil-xayru və

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir.

[2] “Sunən ət-Tirmizi”, 3585; bu hədis “həsən”dir, bax: “Mişkatul-Məsabih”, 1503.

huvə alə kulli şeyin qadir"[1]– desə, Allah ona bir milyon savab yazar və onun bir milyon günahını silər."[2]

Əbu Zərr ﷺ demişdir: "Bir gün mən Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, mənə nəsihət et!"– dedim. O buyurdu: "Pis iş görsən, dalınca yaxşı əməl gör ki, onu silib aparsın." Mən dedim: "Ya Rəsulullah, "Lə ilahə illəllah" *demək* yaxşı əməllərdən sayılırmı?" O buyurdu: "Lə ilahə illəllah" əməllərin ən fəzilətlisidir."[3]

Əbu Hureyrə ﷺ demişdir: "Bir dəfə mən Peyğəmbərdən ﷺ soruşdum: "Ya Rəsulullah! Qiyamət günü sənin şəfaətin sayəsində ən böyük səadətə çatan adam kim olacaq?" Rəsulullah ﷺ dedi: "Ey Əbu Hureyrə! Mən sənin hədis öyrənməyə olan hərisliyini görüb düşünürdüm ki, səndən əvvəl heç kəs bu hədis barəsində məndən soruşmayacaq. Qi-

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! Dirildir və öldürür. O diridir və ölməzdir. Xeyir onun Əlindədir və O, hər şeyə Qadirdir!

[2] "Sunən ət-Tirmizi", 3727; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 6231.

[3] "Musnəd İmam Əhməd", 5/169; bu hədis "həsən"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1373.

yamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə çatanlar, səmimi-qəlblə "Lə ilahə illəllah"– deyən kimsələr olacaq."[1]

Gündəlik olaraq təkrar-təkrar zikr edilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də:

(( سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ،
وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ ))

"Subhanəllahi vəlhəmdulilləhi və lə ilahə illəllahu vəllahu əkbər!"[2]

kəlməsidir.

Bu dörd kəlmənin fəzilətinə dair Sünnədə neçə-neçə hədislər varid olmuşdur ki, bunları bilən mömin heç vaxt o kəlmələri tərk etməz.

Rəsulullah ﷺ demişdir: "Allah üçün ən sevimli kəlam dörddür, hansından başlasan, sə-

[1] "Səhih əl-Buxari", 99.

[2] Tərcüməsi: Allah pak və müqəddəsdir! Həmd Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur! Allah ən böyükdür!

nə zərər verməz: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər."[1]

O, həmçinin demişdir: "Mənim üçün "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər"– demək, dünya və onun içindəkilərdən daha əzizdir."[2]

Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ bir *ağacın* budağını tutub onu silkələdi, lakin onun yarpaqları tökülmədi. Bir də silkələdi, yenə onun yarpaqları tökülmədi. Bir də silkələdi və bu dəfə onun yarpaqları töküldü. Onda, o, belə buyurdu: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllah, vəllahu əkbər" *kəlmələri,* ağac öz yarpaqlarını tökdüyü kimi günahları silib aparır."[3]

Rəsulullah ﷺ demişdir: "Yer üzündə: "Lə ilahə illəllahu, vəllahu əkbəru, və subhanəllahi, vəlhəmdulilləhi, və lə hovlə və lə quvvətə illə billəh"– deyən elə bir mömin yoxdur

---

[1] "Səhih Muslim", 2/172.

[2] "Səhih Muslim", 8/70.

[3] "Musnəd İmam Əhməd", 3/152; bu hədis "həsən"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 3168.

ki, onun günahları dənizdəki köpüklər qədər olsa belə, bağışlanmasın."[1]

Ummu Hani ﷺ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ mənə baş çəkməyə gəldi və mən ona dedim: "Mən artıq yaşa dolmuşam, qocalıq məni əldən salıb. Mənə elə bir əməl öyrət ki, mən oturduğum yerdə ona əməl edim *və savab qazanım.*" Peyğəmbər ﷺ buyurdu: "Yüz dəfə "Subhanəllah!" de, bu sənin üçün İsmayıl ﷺ nəslindən yüz kölə azad etməyə bərabər olacaq. Yüz dəfə "Əlhəmdulilləh!" de, bu sənin üçün Allah yolunda vuruşan mücahidlərin mindiyi, yəhərlənmiş və yüyənlənmiş yüz ata bərabər olacaq. Yüz dəfə "Allahu əkbər!" de, bu sənin üçün qurban kəsilmiş və Allah tərəfindən qəbul edilmiş yüz dəvəyə bərabər olacaq. Yüz dəfə "Lə ilahə illəllah!" de, bu sənin üçün yerlə göy arasını savabla dolduracaq. Və bu zikri etdiyin gün – həmin zikri edən kimsə istisna olmaqla – heç kəsin savabı səninkindən çox olmayacaq."[2]

---

[1] "Musnəd İmam Əhməd", 2/210; bu hədis "həsən"-dir, bax: "Səhih əl-Cami", 5636.

[2] "Musnəd İmam Əhməd", 6/344; bu hədis "həsən"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1316.

Rəsulullah ﷺ demişdir: "Merac gecəsində mən İbrahim əleyhissəlamı gördüm. O dedi: "Ey Muhəmməd! Məndən ümmətinə salam söylə və onlara bildir ki, Cənnətin torpağı ətirli, suyu da olduqca şirindir. Yeri düm-düzdür, üzərinə əkilənlər isə: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər!" kəlmələridir."[1]

Abdullah ibn Şəddad ﷺ rəvayət etmişdir ki, Bənu Uzra qəbiləsindən üç nəfər Peyğəmbərin ﷺ yanına gəlib İslam dinini qəbul etdilər. Sonra Peyğəmbər ﷺ: "Kim bunları öz himayəsinə götürə bilər?"– dedi və Talhə ibn Ubeydullah bu işi öz boynuna çəkdi. Bir müddət sonra Peyğəmbər ﷺ ordu hazırlayıb döyüşə göndərdi. Həmin üç nəfərdən biri onlara qoşuldu və döyüşdə şəhid oldu. Daha sonra Peyğəmbər ﷺ yenə ordu hazırlayıb döyüşə göndərdi. Yenə onlardan biri orduya qoşuldu və döyüşdə şəhid oldu. Üçüncüsü isə yataqda vəfat etdi. Talhə dedi: "Mən yuxuda bu üç nəfərin Cənnətə girdiyini gördüm. Mən yataqda vəfat edənin öndə durduğunu, ikinci

[1] "Sunən ət-Tirmizi", 3462; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 105.

şəhid olanın onun arxasında durduğunu, ilk şəhid olanın isə onların arxasında durduğunu gördüm. Bu yuxu mənə qəribə gəldi və mən onu Peyğəmbərə ﷺ danışdım." Peyğəmbər ﷺ dedi: "Səni təəccübləndirən nədir?! Allah yanında daim çoxlu təkbir, təsbih, təhlil və təhmid gətirərək yaşayan kimsədən daha fəzilətli bir kimsə ola bilməz."[1]

Rəsulullah ﷺ demişdir: "Allah *Öz qulları üçün* dörd kəlmə seçmişdir: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər!" Kim "Subhanəllah!" desə, ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər, "Allahu əkbər!"– desə, yenə ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər, "Lə ilahə illəllah!"– desə, yenə ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər və nəhayət, ürəkdən "Əlhəmdulilləhi Rabbil-aləmin!"– desə, ona otuz savab yazılar və onun otuz günahı silinər."[2]

Əbu Hureyrə demişdir: "Bir dəfə Rəsulullah ﷺ bizə: "Qalxanınızı götürün!"– deyə

---

[1] "Musnəd İmam Əhməd", 1/163; bu hədis "həsən"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 654.

[2] "Musnəd İmam Əhməd", 2/302; bu hədis "həsən"-dir, bax: "Səhih əl-Cami", 1718.

buyurdu. Biz dedik: "Ya Rəsulullah, üstümüzə düşmənmi gəlir?" O buyurdu: "Yox, əksinə, sizi Oddan qoruyacaq qalxanınızı götürün: Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər! Bu kəlmələr, sahibini Cəhənnəm odundan qoruyan və onu öndə aparan, habelə, savabı əbədi qalacaq yaxşı əməllərdəndir."[1]

Rəsulullah ﷺ demişdir: "Allahı tərif edərək zikr etdiyiniz təsbihlər[2], təkbirlər[3], təhlillər[4] və təhmidlər[5] Ərşin ətrafında dövr edirlər. Həmin vaxt onlardan arıların vızıltısı kimi bir səs gəlir. Onlar öz sahibini zikr edirlər[6]. İstəmirsiniz ki, davamlı şəkildə sizin adınızı zikr edənlər olsun?!"[7]

Rəsulullah ﷺ beş şeyə işarə edərək demişdir: "Bəh, bəh! Tərəzidə ən ağır gələnlər

---

[1] "Mustədrək əl-Hakim", 1/541; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 3214.

[2] "Subhanəllah!"– demək.

[3] "Allahu Əkbər!"– demək.

[4] "Lə ilahə illəllah!"– demək.

[5] "Əlhəmdulilləh!"– demək.

[6] Yəni onları zikr edən kimsənin adını çəkir, Allah yanında onun üçün şahidlik edirlər.

[7] "Musnəd İmam Əhməd", 4/271; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 3358.

necə də gözəldir: Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər *kəlmələri,* bir də müsəlmanın vəfat etmiş əməlisaleh övladıdır. *Belə ki,* o bu itkinin savabını Allahdan umur."[1]

Əbu Zərr ﷺ rəvayət edir ki, bir dəfə kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Ya Rəsulullah, var-dövlət sahibləri *bizdən çox* savab qazanırlar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və üstəlik, ən gözəl mallarını *Allah yolunda* sədəqə verirlər." O buyurdu: "Məgər, Allah sizin üçün sədəqə verəcəyiniz şeylər hazırlamayıb?! Həqiqətən, hər bir təsbih sədəqədir, hər bir təkbir sədəqədir, hər bir təhmid sədəqədir, hər bir təhlil sədəqədir, yaxşı əməlləri buyurmaq sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir, habelə, *həyat yoldaşı ilə* yaxınlıq etmək də sədəqədir." Səhabələr soruşdular: "Ya Rəsulullah! Birimiz zövcəsi ilə yaxınlıq edir və buna görə də savab qazanır?" O dedi: "Məgər, haram yolla yaxınlıq etdikdə, buna görə

[1] "Mustədrək əl-Hakim", 1/511-512; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1204.

günah qazanmır?! Eləcə də, halalı ilə yaxınlıq etdikdə, savab qazanır."[1]

İbn Əbu Əufə ﷺ demişdir: "Bədəvilərdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mən Quranı öyrənə bilmirəm. Mənə bunu əvəz edəcək xeyirli sözlər öyrət!" Peyğəmbər ﷺ buyurdu: "De: "Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər və lə hovlə və lə quvvətə illə billəh." Bədəvi barmaqları ilə *bu kəlmələri* sayıb əlini yumdu və dedi: "Bunlar Allaha aiddir. Bəs, mənə aid olanı nədir?" Peyğəmbər ﷺ buyurdu: "De: "Allahumməğfirli, vərhəmni, və afini, vərzuqni, vəhdini."[2] Bədəvi barmaqları ilə *bu kəlmələri də* sayıb əlini yumdu. Onda, Peyğəmbər ﷺ buyurdu: "Bu adam hər iki əlini xeyirlə doldurdu!"[3]

Peyğəmbər ﷺ demişdir: "Kim gecə oyanarkən: "Lə ilahə illəllahu vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, əlhəmdulilləhi, və subhanəllahi, və lə ilahə illallahu, vəllahu əkbər, və lə hovlə və lə

---

[1] "Səhih Muslim", 3/82.

[2] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et, mənə salamatlıq əta et, mənə ruzi ver, mənə hidayət ver!

[3] "Sunən Əbu Davud", 1/133; bu hədis "həsən"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1561.

quvvətə illə billəh.[1]"– deyə *zikr etdikdən* sonra: "Ey Rəbbim, məni bağışla!"– desə və ya dua etsə, ona cavab verilər, qalxıb dəstəmaz aldıqdan sonra namaz qılsa, namazı qəbul olunar."[2]

Kəb ibn Ucra ﷺ demişdir: "Fərz namazını bitirdikdən sonra oxunan zikr vardır ki, hər kim bunları yüz dəfə desə, ziyana uğramaz: Subhanəllahi, vəlhəmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər."[3]

Gündəlik olaraq təkrar-təkrar zikr edilməsi bəyanilən ən fəzilətli zikrlərdən biri də:

(( لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

"Lə hovlə və lə quvvətə illə billəh!"[4]

kəlməsidir.

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Həmd Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Allahdadir!

[2] "Səhih əl-Buxari", 1154.

[3] "Səhih Muslim", 2/98.

[4] Tərcüməsi: Qüdrət və güc yalnız Allahdadir!

Bu möhtəşəm kəlmənin fəzilətinə dair bir çox hədislər varid olmuşdur:

Rəsulullah ﷺ demişdir: "Lə hovlə və lə quvvətə illə billəh!" kəlməsini çox zikr edin! Çünki bu kəlmə Cənnət xəzinələrindən biridir."[1]

Əbu Əyyub əl-Ənsari rəvayət etmişdir ki, Rəsulullah ﷺ Merac gecəsində İbrahimin عليه السلام yanına gəlmiş və İbrahim Cəbraildən: "Ey Cəbrail, yanındakı kimdir?"– deyə soruşmuş və Cəbrail *ona*: "Bu, Muhəmməddir!"– deyə cavab verdikdə, İbrahim Peyğəmbərə ﷺ belə nəsihət etmişdir: "Ümmətinə əmr et, *özləri üçün* Cənnətdə çoxlu ağac əksinlər! Cənnətin torpağı ətirli, yeri də olduqca genişdir." Peyğəmbər ﷺ ondan: "Cənnət ağacları nədir?"– deyə soruşduqda, İbrahim belə cavab vermişdir: "Lə hovlə və lə quvvətə illə billəh!"[2]

Muaz ibn Cəbəl demişdir: "Bir dəfə Peyğəmbər ﷺ mənə dedi: "Səni Cənnət qapılarından birinə yönəldimmi?" Mən dedim:

---

[1] "Musnəd İmam Əhməd", 2/333; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1528.

[2] "Musnəd İmam Əhməd", 5/418; bu hədis "səhih"-dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1583.

"Nədir o, *ya Rəsulullah?*" O buyurdu: "Lə hovlə və lə quvvətə illə billəh!"[1]

Peyğəmbər ﷺ demişdir: "Allah üçün ən sevimli kəlam *bunlardır*: Subhanəllahi lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, lə hovlə və lə quvvətə illə billəh, subhanəllahi və bihəmdih.[2]"[3]

Rəsulullah ﷺ demişdir: "Adam evindən bayıra çıxdığı zaman: "Bismilləh, təvəkkəltu aləllah, lə hovlə və lə quvvətə illə billəh!"– desə, həmin vaxt *mələk ona*: "Doğru yola yönəldin, *işlərin* yoluna qoyuldu, *şərdən* qorundun!"– deyər, üstəlik şeytan ondan uzaq durar və şeytanlardan biri o birisinə deyər: "Doğru yola yönəlmiş, *işləri* yoluna qoyulmuş və *şərdən* qorunmuş adama sən nə edə bilərsən?!"[4]

---

[1] "Musnəd İmam Əhməd", 5/228; bu hədis "səhih"-dir, bax: "Səhih əl-Cami", 2610.

[2] Tərcüməsi: Allah pak və müqəddəsdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir. Qüdrət və güc yalnız Allahdadir! Allah pak və müqəddəsdir! Allaha həmd olsun!

[3] "əl-Ədəbul-Mufrad", 638; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", səh: 238.

[4] "Sunən Əbu Davud", 5095 bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 499.

Gündəlik olaraq təkrar-təkrar zikr edilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də:

(( أَسْتَغْفِرُ اللهَ وَأَتُوبُ إِلَيْهِ ))

"Əstəğfirullahə və ətubu ileyh!"[1]

kəlməsidir.

Peyğəmbər ﷺ öz ümmətinə bu zikri gündəlik olaraq təkrarlamağı buyurub demişdir: "Ey insanlar, Allaha tövbə edin və Ondan bağışlanma diləyin! Həqiqətən də, mən hər gün yüz dəfə Ona tövbə edir və Ondan bağışlanma diləyirəm!"[2]

Əbu Hureyrə ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ daha çox: "Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!"– deyən bir kimsə görməmişəm."[3]

Bu möhtəşəm zikrin fəzilətinə dair bir çox hədislər varid olmuşdur:

---

[1] Tərcüməsi: Allahım, məni bağışla və mənim tövbəmi qəbul et!

[2] "Musnəd İmam Əhməd", 4/260-261; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1452.

[3] "Səhih İbn Hibban", 928.

Peyğəmbər ﷺ demişdir: "Əməl dəftərinə çoxlu istiğfar yazılmış kimsənin xoş halına![1]"[2]

Peyğəmbərin ﷺ rəvayət etdiyi qüdsi hədisdə Allah buyurur: "Ey Adəm övladı! Nə qədər ki, Mənə dua edirsən və Mənim *mərhəmətimə* ümid bağlayırsan, Mən sənin günahlarının hamısını bağışlayır, *günahın çoxluğuna və böyüklüyünə* əhəmiyyət vermirəm. Ey Adəm övladı! Əgər sənin günahların *yerdən* göyədək olsa, sonra da Məndən bağışlanma

---

[1] Hədisdə keçən "xoş halına" ifadəsi eynilə Qurandakı ayəyə bənzəyir. Həmin ayədə Uca Allah buyurur: **"İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır"** (ər-Rəd, 29). Təfsirçilər bu ayəni belə izah etmişlər: İbn Abbas رضي الله عنهما demişdir: "Bu, sevinc və gözaydınlığıdır." İkrimə demişdir: "Onlara bəxş edilmiş nemətlər necə də gözəldir." Dəhhak demişdir: "Onlar qibtə olunası insanlardır." Qətadə demişdir: "Xoş onların gözəl aqibətinə." Həmçinin demişdir: "Onlar xeyirə nail olmuşlar." İbrahim demişdir: "Onlara xeyir və kəramət nəsib edilmişdir." İbn Aclan demişdir: "*Ayədə "tubə" deyildikdə* – davamiyyətli xeyir *nəzərdə tutulur.*" Bəzi təfsirçilər də *ayədə keçən "tubə" kəlməsinin*: "Cənnət" və ya "Cənnətdəki ağac" olduğunu söyləmişlər. Qeyd etmək lazımdır ki, hədisdə keçən "tubə" sözü, bu mənalardan hər birini ifadə edə bilər. Daha doğrusunu isə Allah bilir.

[2] "Əməlul-Yovm vəl-Leylə", ən-Nəsai, 455; bu hədis "səhih"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1618.

diləsən, Mən səni bağışlayar, *günahın çoxluğuna və böyüklüyünə* əhəmiyyət verməərəm. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən və heç bir şeyi Mənə şərik qoşmadan, Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm."[1]

Rəsulullah ﷺ demişdir: "Uca Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir[2] və buyurur: "Mənəm Hökmdar! Mənəm Hökmdar! Mənə dua edən varmı, onun duasını qəbul edim?! Məndən istəyən varmı, ona istədiyini verim?! Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?!" Bu hal dan yeri sökülənədək davam edər."[3]

Rəsulullah ﷺ demişdir: "Bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, Adəm övladının ruhu bədənində olduğu müddətcə[4] mən onları haqq yolundan sapdıracağam!"– demiş, Rəbbi də ona belə cavab vermişdi: "İzzətimə və cəlalıma and

---

[1] "Sunən ət-Tirmizi", 2/270; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 127.

[2] "əl-Ədəbul-Mufrad" əsərində varid olmuş 753-cü hədisin şərhinə bax.

[3] "Səhih Muslim", 2/175.

[4] Yəni ölənədək.

olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!”[1]

Düzdür, bu xüsusda, “Əstəğfirullahə və ətubu ileyh” daha geniş yayılmış bir kəlmədir, lakin Sünnədə istiğfarın başqa formaları da varid olmuşdur:

Aişə ﵂ demişdir: “Rəsulullah ﷺ duha namazını qıldıqdan sonra yüz dəfə:

(( اللَّهُمَّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ،إِنَّكَ
أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

“Allahumməğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim!”[2]– demişdir.”[3]

İbn Ömər ﵄ demişdir: “Biz Peyğəmbərin ﷺ məclisində olanda onun yüz dəfə:

(( رَبِ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ
أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

---

[1] “Musnəd İmam Əhməd”, 3/41; bu hədis “səhih”dir, bax: “Səhih əl-Cami”, 499.

[2] Tərcüməsi: Allahım, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!

[3] “Musnəd İmam Əhməd”, 2/21; bu hədis “səhih”dir, bax: “Səhih əl-Ədəbul-Mufrad”, 619.

“Rabbiğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim!”[1]– dediyini sayardıq.”[2]

Rəsulullah ﷺ demişdir: “Kim:

)) أَسْتَغْفِرُ اللَّهَ الَّذِى لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ وَأَتُوبُ إِلَيْهِ ((

“Əstəğfirullahəlləzi lə ilahə illə huvəl-Heyyul-Qəyyumu və ətubu ileyh!”[3]– desə, döyüş meydanından qaçmış olsa belə, onun günahları bağışlanar.”[4]

Rəsulullah ﷺ ömrü boyu Rəbbindən bağışlanma diləmiş və nəhayət, ömrünün sonunda istiğfarı daha da artırmışdır.

Möminlərin anası Aişə رضي الله عنها demişdir:[5] “Rəsulullah ﷺ *ömrünün sonuna yaxın* bu duanı

---

[1] Tərcüməsi: Ey Rəbbim, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən də, Sən Tövbələri qəbul edənsən, Rəhmlisən!

[2] “Sunən Əbu Davud”, 15164 bu hədis “səhih”dir, bax: “Silsilətul-Əhadisis-Səhihə”, 556.

[3] Tərcüməsi: Özündən başqa heç bir *haqq* məbud olmayan, *əbədi* Yaşayan və *bütün yaratdıqlarının* Qəyyumu olan Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!

[4] “Sunən Əbu Davud”, 1519; bu hədis “səhih”dir, bax: “Səhih Əbu Davud”, 1358.

[5] “Səhih Muslim”, 2/50.

çox edərdi: "Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh.[1]"

Aişə dedi: "Mən soruşdum: "Ya Rəsulullah, "Subhanəllahi və bihamdih, əstəğfirullahə və ətubu ileyh!" kəlmələrini təkrar-təkrar söyləməyinin səbəbi nədir? O dedi: "Rəbbim mənə ümmətimə dair bir əlamət görəcəyimi və o əlaməti gördüyüm zaman təkrar-təkrar: "Subhanəllahi və bihəmdih, əstəğfirullahə və ətubu ileyh" söyləyəcəyimi xəbər vermişdi. Artıq o əlaməti gördüm. *Budur, o əlamət*: **"Allahın köməyi və qələbə gəldiyi zaman"** – yəni Məkkə fəth edildiyi zaman – **"insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!"[2]**

Beləcə, Rəsulullah ﷺ öz əcəli yetişənədək Allahdan bağışlanma diləməyinə davam etmiş, hətta, son nəfəsində belə, Rəbbi onu Allahdan bağışlanma diləməyə müvəffəq etmişdir. Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ mənim

---

[1] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun. Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!

[2] "ən-Nəsr" surəsi.

evimdə və başı mənim sinəmin üstündə ikən vəfat etdi. O, əllərini suyun içinə salır, sonra *yaş əllərini* üzünə sürtüb deyirdi: “Lə ilahə illəllah! Həqiqətən də, ölümün bihuşluğu vardır.” Sonra o, əllərini qaldırıb:

(( اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَأَلْحِقْنِي بِالرَّفِيقِ الأَعْلَى ))

“Allahumməğ-firli, vər-həmni və əlhiqni bir-rəfiqil-ə'la!”[1]– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əlləri yanına düşdü.”[2]

Gündəlik olaraq təkrar-təkrar zikr edilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də:

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ ))

“Subhanəllahi və bihəmdih!”[3]

kəlməsidir. Bu kəlmənin fəzilətinə dair neçə-neçə hədislər rəvayət edilmişdir. Onlardan bəzisi aşağıdakılardır:

---

[1] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!

[2] “Səhih əl-Buxari”, 5674; “Səhih Muslim”, 7/137.

[3] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun!

Rəsulullah ﷺ demişdir: "Kim hər gün yüz dəfə "Subhanəllahi və bihəmdih"– desə, onun günahları – dənizdəki köpüklər qədər olsa belə, bağışlanar."[1]

O, həmçinin demişdir: "Kim bir dəfə "Subhanəllahi və bihəmdih"– desə, Cənnətdə onun üçün bir xurma ağacı əkilər."[2]

O, həmçinin demişdir: "Allahın peyğəmbəri Nuh ﷺ ölüm ayağında ikən oğluna belə demişdir: "Mən sənə "Sübhanəllah və bihəmdih" kəlməsini *əmr edirəm*. Çünki bu kəlmə hər bir şeyin duasıdır. Bunun sayəsində hər şeyə ruzi verilir..."[3]

O, həmçinin demişdir: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə *vardır ki, bunlar*: "Sübhanəllahi və bihəmdihi, subhanəllahil-əzim[4]!" *kəlmələridir*."[5]

---

[1] "Səhih əl-Buxari", 6405; "Səhih Muslim", 8/69.

[2] "Sunən ət-Tirmizi", 2/258-259; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 64.

[3] "Musnəd İmam Əhməd", 2/169-170; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", 548.

[4] Tərcüməsi: Allah pak və müqəddəsdir. Allaha həmd olsun! Böyük Allah pak və müqəddəsdir!

[5] "Səhih əl-Buxari", 7563; "Səhih Muslim", 8/70.

O, həmçinin demişdir: "Kim gecə *namazına qalxmağa* tənbəllik etsə, malını xərcləməyə xəsislik etsə və düşmənlə cihad etməkdən qorxsa, qoy çoxlu "Subhanəllahi və bihəmdih"– desin.[1]

Əbu Zərr ﷺ demişdir: "*Bir dəfə* Rəsulullahdan ﷺ ən fəzilətli kəlam barədə soruşdular. O dedi: "*Bu,* Allahın Öz mələkləri və ya qulları üçün seçdiyi "Subhanəllahi və bihəmdih" *kəlməsidir*."[2]

Əbu Zərr ﷺ demişdir: "*Bir gün* Rəsulullah ﷺ mənə dedi: "Sənə Allahın ən çox sevdiyi kəlməsi barədə xəbər verimmi?" Mən dedim: "Ya Rəsulullah, Allahın ən çox sevdiyi kəlməni mənə bildir." O dedi: "Allah üçün ən sevimli kəlmə "Subhanəllahi və bihəmdih" *kəlməsidir*."[3]

Gündəlik olaraq təkrar-təkrar zikr edilməsi bəyənilən ən fəzilətli zikrlərdən biri də, Rəsulullah ﷺ yad edildikdə ona salavat və salam deməkdir.

---

[1] "əl-Mocəm ət-Təbərani", 7699; bu hədis "səhih liğeyrihi"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1541.

[2] "Səhih Muslim", 7101.

[3] "Səhih Muslim", 7102.

(( اللَّهُمَّ صَلِّ وَسَلِّمْ عَلَى نَبِيِّنَا مُحَمَّدٍ ))

"Allahummə salli və səllim alə nəbiyyinə Muhəmməd!"[1]

Bu xüsusda, Uca Allah buyurur: "**Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib onu kamil ədəb-ərkanla salamlayın.**"[2]

Peyğəmbər ﷺ demişdir: "Mənə salavat gətirin, çoxlu dua edin və deyin:

(( اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ ))

"Allahummə salli alə Muhəmmədin və ala ali Muhəmməd, və barik alə Muhəmmədin və əla ali Muhəmməd, kəmə barəktə əla İbrahimə innəkə həmidun məcid.[3]"[1]

---

[1] Tərcüməsi: Allahım, Peyğəmbərimiz Muhəmmədə salavat və salam yetir!

[2] "əl-Əhzab" surəsi, 56.

[3] Tərcüməsi: Allahım, İbrahimə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də, həm

O, həmçinin demişdir: "Paxıl o kimsədir ki, mənim adım çəkildikdə, mənə salavat demir."[2]

O, həmçinin demişdir: "Mənə çoxlu salavat deyin! Belə ki, Allah mənim üçün qəbrimin başında duran bir mələk təyin etmişdir. Ümmətimdən bir kimsə mənə salavat gətirdiyi zaman o mələk mənə deyər: "Ey Muhəmməd, filankəsin oğlu filankəs bu saat sənə salavat deyir."[3]

O, həmçinin demişdir: "Məclisdə oturarkən Rəbbini zikr etməyən və Peyğəmbərinə salavat gətirməyən camaat Qiyamət günü ziyana uğrayar. Allah istəsə, onlara əzab verər, istəsə, onları bağışlayar."[4]

Peyğəmbərə ﷺ salavat deməyin fəziləti barədə bir çox hədislər rəvayət edilmişdir. Onlardan bəzisi aşağıdakılardır:

---

xeyir-dua, həm də də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!

[1] "Musnəd İmam Əhməd", 1/199; bu hədis "səhih"-dir, bax: "Səhih əl-Cami", 3783.

[2] "Musnəd İmam Əhməd", 1/201; bu hədis "səhih"-dir, bax: "Səhih əl-Cami", 2878.

[3] "əl-Firdovs", əd-Deyləmi, (1/1/31) bu hədis "həsən"-dir, bax: "Səhih əl-Cami", 1207.

[4] "Sunən Əbu Davud", 4856; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 6043.

Ubey ibn Kəb ﷺ demişdir: "*Bir dəfə* gecənin üçdə ikisi keçdikdən sonra Rəsulullah ﷺ ayağa qalxıb dedi: "Ey insanlar, Allahı zikr edin, Allahı zikr edin! Lərzəyə gələnin lərzələnəcəyi, onun ardınca yenə təkrar lərzələnəcəyi vaxt yaxınlaşmışdır! Ölüm öz şiddəti ilə yaxınlaşmışdır! Ölüm öz şiddəti ilə yaxınlaşmışdır!" Ubey ﷺ dedi: "Mən dedim: "Ya Rəsulullah, mən sənə çoxlu salavat deyirəm. Dualarımdan nə qədərini sənə salavat deyə bilərəm?" O dedi: "İstədiyin qədər." Mən dedim: "Dörddə birini *deyə bilərəmmi*?" O dedi: "İstədiyin qədər *deyə bilərsən*. Artırsar, bu sənin üçün xeyirli olar." Mən dedim: "Yarısını *deyə bilərəmmi*?" O dedi: "İstədiyin qədər *deyə bilərsən*. Artırsan, bu sənin üçün xeyirli olar." Mən dedim: "Üçdə ikisini *deyə bilərəmmi*?" O dedi: "İstədiyin qədər *deyə bilərsən*. Artırsan, bu sənin üçün xeyirli olar." Mən dedim: "Elə isə, *özüm üçün edəcəyim* duaların hamısının yerinə sənə salavat deyəcəyəm." O dedi: "Belə olduğu təqdirdə, sıxıntıların aradan qalxar və günahların bağışlanar."[1]

---

[1] "Sunən ət-Tirmizi", 5/136; bu hədis "həsən"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1670.

Peyğəmbər ﷺ demişdir: "Kim mənə bir salavat oxuyarsa, Allah ona *bunun sayəsində* onunu yetirər və onun on günahından keçər."[1]

Peyğəmbər ﷺ demişdir: "Kim mənə bir salavat oxuyarsa, ona *bunun sayəsində* on savab yazılar."[2]

Fədalə ibn Ubeyd رضي الله عنه demişdir: "Bir dəfə Rəsulullah ﷺ bir kişinin namazda Allaha həmd etmədən və Peyğəmbərə ﷺ salavat demədən dua etdiyini eşitdi. Onda Rəsulullah ﷺ ona: "Sən tələsdin, ey namaz qılan adam!"– dedi. Sonra Rəsulullah ﷺ öz səhabələrinə dua etməyin qaydasını öyrətdi. Bir müddət sonra Rəsulullah ﷺ bir adamın namazda dua edərkən Peyğəmbərə ﷺ salavat dediyini eşitdi və ona belə buyurdu: "Ey namaz qılan adam, dua et, duan qəbul olacaq, istə, sənə istədiyin veriləcək!"[3]

---

[1] "Musnəd İmam Əhməd", 3/102; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 829.

[2] "Səhih İbn Hibban", 3/102; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 3359.

[3] "Sunən Əbu Davud", 6/18; bu hədis "səhih"dir, bax: "Mişkatul-Məsabih", 930.

Peyğəmbərimizin ﷺ bizə tövsiyə etdiyi dualardan biri də İslam ümməti arasında salamı yaymaqdır.

Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "əs-Səlam – Uca Allahın adlarından biridir. O bunu *bir-birinizlə salamlaşasınız deyə* Yer üzünə qoymuşdur. Elə isə, aranızda salamı yayın!"[1] O, həmçinin demişdir: "Müsəlmanın müsəlman üzərində altı haqqı vardır. Soruşdular: "Nədir bunlar?" Peyğəmbər ﷺ buyurdu: "Müsəlmanla rastlaşdığın zaman ona salam ver..."[2]

Uca Allah bu möhtəşəm kəlməni mələklərə, habelə, bütün peyğəmbərlərinə və rəsullarına öyrətmişdir.

Peyğəmbər ﷺ demişdir: "Allah Adəmi boyu altmış ərəş[3] uzunluğunda yaratdı. Sonra buyurdu: "Get, oradakı mələklərə salam ver və dinlə, gör, sənin salamını necə alacaqlar. Çünki bu, həm sənin, həm də sənin zürriyyətinin salamıdır." *Adəm* onlara: "Əssəlamu

---

[1] "əl-Ədəbul-Mufrad", 989; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1607.

[2] "Səhih Muslim", 7/3.

[3] Ərəş: dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü.

aleykum![1]"– dedi. Onlar da: "Əssəlamu aleykə və rahmətullah![2]"– deyib, buna "və rahmətullah" kəlməsini əlavə etdilər."[3]

Rəsulullah ﷺ müsəlmanlara Cənnətə girməyin yolunu göstərib demişdir: "İman gətirməyincə, Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevməyincə, *tamam-kamal* iman gətirmiş sayılmazsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə, bir-birinizi sevəsiniz? Aranızda salamı yayın."[4]

Bu möhtəşəm duanın müsəlmanlar arasında olduqca çox zikr olunması barədə Rəsulullah ﷺ belə buyurmuşdur: Qoy, sizdən biriniz *din* qardaşına rast gəldikdə, ona salam versin və əgər onların arasına bir ağac, yaxud bir divar, yaxud bir daş girsə, sonra *yenə* onunla üz-üzə gəlsə, qoy, *yenə* ona salam versin."[5]

---

[1] Tərcüməsi: Sizə salam olsun!

[2] Tərcüməsi: Sənə salam olsun və Allahın rəhməti yetişsin!

[3] "Səhih əl-Buxari", 3326.

[4] "Səhih Muslim", 194.

[5] "Sunən Əbu Davud", 5200; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 186.

Bu möhtəşəm duanın fəzilətinə dair olduqca çox hədislər varid olmuşdur. Onlardan bir neçəsi ilə kifayətlənək:

Əbu Hureyrə ؓ rəvayət edir ki, *bir dəfə* Rəsulullah ﷺ məclisdə ikən bir nəfər gəlib: "Əssəlamu aleykum!"– dedi. Rəsulullah ﷺ buyurdu: "*Bu adam* on savab *qazandı*." Sonra başqa bir adam gəlib: "Əssəlamu aleykum və rahmətullah!"– dedi. Rəsulullah ﷺ buyurdu: "*Bu adam* iyirmi savab *qazandı*." Sonra da başqa birisi gəlib: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu!"[1]– dedi. Peyğəmbər ﷺ buyurdu: "*Bu adam* otuz savab *qazandı*." Sonra bir nəfər məclisdən qalxıb *getdi və* salam vermədi. Rəsulullah ﷺ dedi: "Dostunuz *salamı* nə tez unutdu. Qoy, sizlərdən biri məclisə gəldiyi zaman salam versin və əgər *orada* oturmağı məsləhət bilirsə, otursun. Məclisdən durub getdikdə də, salam versin. Əvvəlki salam sonuncu salamdan heç də üstün deyildir.[2]"[3]

---

[1] Tərcüməsi: Sizə salam olsun, Allahın rəhməti və bərəkəti yetişsin!

[2] Bundan aydın olur ki, müsəlman müsəlmanla görüşdükdə də, vidalaşdıqda da ona salam verməlidir.

[3] "Səhih İbn Hibban", 493; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", 986.

Abdullah ibn Amr ﷺ rəvayət edir ki,[1] bir nəfər Peyğəmbərdən ﷺ soruşdu: "İslam *xislətlərindən* ən xeyirlisi hansıdır?" Peyğəmbər ﷺ buyurdu: "Sənin, *ehtiyacı olan kimsəyə* yemək yedirtməyin, tanıdığına və tanımadığına salam verməyindir.[2]"

Rəsulullah ﷺ demişdir: "Yəhudilər sizə "salam" və "amin" deməyinizə görə həsəd apardıqları kimi, heç bir şeyə həsəd aparmırlar.[3]"[1]

---

[1] "Səhih əl-Buxari", 12; "Səhih Muslim", 160.

[2] Yəni qarşına çıxan hər bir müsəlmana salam verməlisən. Yalnız tanıdığın adama salam vermək İslam əxlaqına zidd olan bir xasiyyətdir və Qiyamətin əlamətlərindəndir. Peyğəmbər ﷺ demişdir: "Birisinin ancaq tanıdığına salam verməsi Qiyamətin əlamətlərindəndir" (Müsnəd Əhməd, 1/387; Silsilətu Əhadis əs-Səhihə, 648).

[3] Bundan aydın olur ki, yəhudilər İslam dininin və onun buyuruqlarının nə dərəcədə xeyirli-bərəkətli olduğundan xəbərdardırlar. Ümumiyyətlə, Kitab əhlinin müsəlmanlara həsəd aparması barədə Quranda belə xəbər verilir: **"Kitab əhlindən bir çoxu həqiqəti bildikdən sonra, həsədləri üzündən sizi, siz iman gətirdikdən sonra kafirliyə qaytarmaq istəyərlər"** (əl-Bəqərə, 109). Qeyd edək ki, "salam" İslam dininin şüarı, muvahhidlərin zinəti, qardaşlıq bağlarını möhkəm saxlayan bir ip və müttəqilər arasındakı ülfəti artıran bir səbəbdir. "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuh" duası özündə üç şeyi cəm edir: şərdən qorunmaq, Allahın mərhəmətinə qovuşmaq və bir də xeyir-bərəkətə nail olmaq.

Bu dua bütün xeyirləri özündə cəm edən bir duadır. "Amin" kəlməsinə gəlincə, xüsusilə qeyd etmək lazımdır ki, bu, müsəlmanların birliyinə dəlalət edən bir kəlmədir. Belə ki, imam dua etdikdə onun arxasındakıların hamılıqla "amin" deməsi müsəlman camaatının birliyinə və bu duanın hamıya şamil olunduğuna dəlalət edir. Məsələn, imam "Ey Rəbbimiz, bizi bağışla" deyə dua edir, arxasındakılar da "amin" deyir, beləliklə də, bu rəhmət onların hamısını əhatə edir (Abdur-Rəzzaq əl-Abbad, "Şərh əl-Ədəbul-Mufrad").

[1] "Musnəd İshaq ibn Rahuyə", 1122; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", səh: 380.

# Gündəlik zikrlər

## Yuxudan oyandıqda edilən zikrlər

**(1)** Huzeyfə ibn əl-Yəmən ﷺ demişdir: “Peyğəmbər ﷺ yuxudan oyandıqda deyərdi:

(( الْحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ ))

“Əlhəmdulillahil-ləzi əhyanə bə'də mə əmatənə və ileyhin-nuşur![1]”[2]

**(2)** Peyğəmbər ﷺ demişdir: “Kim gecə yuxudan oyanıb:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ. الْحَمْدُ لِلَّهِ، وَسُبْحَانَ اللَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ الْعَلِيِّ الْعَظِيمِ ))

“Lə ilahə illəllahu vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, əlhəmdulilləhi, və subhanəllahi,

[1] Tərcüməsi: Bizi öldürdükdən sonra diriildən Allaha həmd olsun. *Ölüb dirildikdən sonra isə* qayıdış Onadır!
[2] “Səhih əl-Buxari”, 6312; “Səhih Muslim”, 8/78.

və lə ilahə illəllahu, vəllahu əkbər, və lə hovlə və lə quvvətə illə billəhil-aliyyil-azim![1]"– deyə *zikr etdikdən* sonra:

(( رَبِّ اغْفِرْ لِي ))

"Rabbiğfir li![2]"– desə və ya dua etsə, ona cavab verilər, qalxıb dəstəmaz aldıqdan sonra namaz qılsa, namazı qəbul olunar."[3]

**(3)** Peyğəmbər ﷺ demişdir: "Qoy, sizlərdən biri yuxudan oyandığı zaman desin:

(( الْحَمْدُ لِلَّهِ الَّذِي عَافَانِي فِي جَسَدِي، وَرَدَّ عَلَيَّ رُوحِي، وَأَذِنَ لِي بِذِكْرِهِ ))

"Əlhəmdulillahil-ləzi afani fi cəsədi, və raddə aleyyə ruhi, və əzinə li bizikrih![4]"[1]

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Həmd Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allaha aiddir!

[2] Tərcüməsi: Ey Rəbbim, məni bağışla!

[3] "Səhih əl-Buxari", 1154.

[4] Tərcüməsi: Bədənimə sağlamlıq verən, ruhumu mənə qaytaran və mənə Onu yad etməyə izin verən Allaha həmd olsun!

**(4)** İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, bir gecə Peyğəmbər ﷺ yuxudan oyandı və gözlərini ovxalayıb, yuxusunu dağıtdı. Sonra "Ali-İmran" surəsinin son on ayəsini oxudu:[2]

﴿إِنَّ فِي خَلْقِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَٱخْتِلَٰفِ ٱلَّيْلِ
وَٱلنَّهَارِ لَءَايَٰتٍ لِّأُوْلِي ٱلْأَلْبَٰبِ ﴿١٩٠﴾ ٱلَّذِينَ يَذْكُرُونَ ٱللَّهَ قِيَٰمًا
وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ ٱلسَّمَٰوَٰتِ
وَٱلْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَٰطِلًا سُبْحَٰنَكَ فَقِنَا عَذَابَ ٱلنَّارِ
﴿١٩١﴾ رَبَّنَآ إِنَّكَ مَن تُدْخِلِ ٱلنَّارَ فَقَدْ أَخْزَيْتَهُۥ ۖ وَمَا لِلظَّٰلِمِينَ مِنْ
أَنصَارٍ ﴿١٩٢﴾ رَّبَّنَآ إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلْإِيمَٰنِ أَنْ
ءَامِنُوا۟ بِرَبِّكُمْ فَـَٔامَنَّا ۚ رَبَّنَا فَٱغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا
سَيِّـَٔاتِنَا وَتَوَفَّنَا مَعَ ٱلْأَبْرَارِ ﴿١٩٣﴾ رَبَّنَا وَءَاتِنَا مَا وَعَدتَّنَا عَلَىٰ
رُسُلِكَ وَلَا تُخْزِنَا يَوْمَ ٱلْقِيَٰمَةِ ۗ إِنَّكَ لَا تُخْلِفُ ٱلْمِيعَادَ ﴿١٩٤﴾

---

[1] "Sunən ət-Tirmizi", 3401; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 716.

[2] "Səhih əl-Buxari", 183.

فَٱسۡتَجَابَ لَهُمۡ رَبُّهُمۡ أَنِّي لَآ أُضِيعُ عَمَلَ عَٰمِلٖ مِّنكُم مِّن ذَكَرٍ
أَوۡ أُنثَىٰۖ بَعۡضُكُم مِّنۢ بَعۡضٖۖ فَٱلَّذِينَ هَاجَرُواْ وَأُخۡرِجُواْ مِن
دِيَٰرِهِمۡ وَأُوذُواْ فِي سَبِيلِي وَقَٰتَلُواْ وَقُتِلُواْ لَأُكَفِّرَنَّ عَنۡهُمۡ
سَيِّـَٔاتِهِمۡ وَلَأُدۡخِلَنَّهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ
ثَوَابٗا مِّنۡ عِندِ ٱللَّهِۚ وَٱللَّهُ عِندَهُۥ حُسۡنُ ٱلثَّوَابِ ١٩٥ لَا يَغُرَّنَّكَ
تَقَلُّبُ ٱلَّذِينَ كَفَرُواْ فِي ٱلۡبِلَٰدِ ١٩٦ مَتَٰعٞ قَلِيلٞ ثُمَّ مَأۡوَىٰهُمۡ
جَهَنَّمُۖ وَبِئۡسَ ٱلۡمِهَادُ ١٩٧ لَٰكِنِ ٱلَّذِينَ ٱتَّقَوۡاْ رَبَّهُمۡ لَهُمۡ جَنَّٰتٞ
تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَا نُزُلٗا مِّنۡ عِندِ ٱللَّهِۗ وَمَا
عِندَ ٱللَّهِ خَيۡرٞ لِّلۡأَبۡرَارِ ١٩٨ وَإِنَّ مِنۡ أَهۡلِ ٱلۡكِتَٰبِ لَمَن
يُؤۡمِنُ بِٱللَّهِ وَمَآ أُنزِلَ إِلَيۡكُمۡ وَمَآ أُنزِلَ إِلَيۡهِمۡ خَٰشِعِينَ لِلَّهِ لَا
يَشۡتَرُونَ بِـَٔايَٰتِ ٱللَّهِ ثَمَنٗا قَلِيلًاۚ أُوْلَٰٓئِكَ لَهُمۡ أَجۡرُهُمۡ
عِندَ رَبِّهِمۡۗ إِنَّ ٱللَّهَ سَرِيعُ ٱلۡحِسَابِ ١٩٩ يَٰٓأَيُّهَا
ٱلَّذِينَ ءَامَنُواْ ٱصۡبِرُواْ وَصَابِرُواْ وَرَابِطُواْ وَٱتَّقُواْ ٱللَّهَ
لَعَلَّكُمۡ تُفۡلِحُونَ ٢٠٠

**Səhər yuxudan oyandıqda zikr etməyin fəziləti:**

Rəsulullah ﷺ demişdir: “Sizlərdən biri yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər düyün vurduqca: “Gecə uzundur, yat!”– *deyir*. Əgər o kimsə oyanıb, Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də, o adam səhər gümrah və əhvali-ruhiyyəsi yaxşı olduğu halda yuxudan oyanar. Əks halda isə, o, əhvali-ruhiyyəsi çox pis, özü də əzgin halda yuxudan oyanar.”[1]

## Paltar geyinərkən nə deyilir

**(5)** Rəsulullah ﷺ demişdir: “Hər kim paltarını geyinərkən:

(( الْحَمْدُ لِلَّهِ الَّذِى كَسَانِى هَذَا الثَّوْبَ وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّى وَلاَ قُوَّةٍ ))

“Əlhəmdulillahil-ləzi kəsani hazəs-sovbə və rəzəqənihi min ğeyri hovlin minni və lə

[1] “Səhih əl-Buxari”, 1142.

quvvəh![1]"– desə, onun keçmiş günahları bağışlanar."[2]

## Ayaqyoluna girərkən edilən zikr

**(6)** Peyğəmbər ﷺ demişdir: "Cinlərin gözləri ilə insanların ayıb yerləri arasına çəkilən örtük, birinizin ayaqyoluna daxil olmaq istədiyi zaman

(( بِسْمِ اللهِ ))

"Bismilləh![3]"– deməsidir."[4]

**(7)** Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ ayaqyoluna daxil olmaq istədikdə deyərdi:

(( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْخُبُثِ وَالْخَبَائِثِ ))

"Allahummə inni əuzu bikə minəl-xubsi vəl-xəbais![1]"[2]

---

[1] Tərcüməsi: Bu paltarı mənə geyindirən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!

[2] "Sunən Əbu Davud", 4023; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 6086.

[3] Tərcüməsi: Allahın adı ilə!

[4] "Sunən ət-Tirmizi", 606; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 3611.

## Ayaqyolundan çıxarkən edilən zikr

**(8)** Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ ayaqyolundan çıxdıqda deyərdi:

(( غُفْرَانَكَ ))

“Ğufranək![3]”[4]

## Dəstəmaz almağa başladıqda edilən zikr

**(9)** Rəsulullah ﷺ demişdir: “Dəstəmazı olmayan kimsənin namazı qəbul edilməz, “Bismilləh!” deməyən kimsənin də, dəstəmazı qəbul edilməz.”[5]

---

[1] Tərcüməsi: Allahım, erkək və dişi xəbislərdən Sənə sığınıram!

Burada “xəbislər” deyildikdə, cinlərdən olan şeytanlar nəzərdə tutulur (Şərh Əbu Davud).

[2] “Səhih əl-Buxari”, 142; “Səhih Muslim”, 831.

[3] Tərcüməsi: *Allahım,* məni bağışla!

Burada bağışlanma diləməkdə hikmət, adamın ayaqyolunda olduğu müddət ərzində Allahı yad etmədiyinə görə, habelə, Allahın verdiyi nemətlərə görə Ona layiqincə şükür edə bilmədiyi üçün məğfirət diləməsidir.

[4] “Sunən Əbu Davud”, 30; bu hədis “səhih”dir, bax: “Səhih əl-Ədəbul-Mufrad”, 693.

[5] “Sunən Əbu Davud”, 101; bu hədis “həsən”dir, bax: “Səhih əl-Cami”, 7514). Abdul-Aziz ibn Baz ﵀ demişdir:

## Dəstəmaz aldıqdan sonra edilən zikr

**(10)** Rəsulullah ﷺ demişdir: "Sizdən hansı biriniz kamil şəkildə dəstəmaz aldıqdan sonra:

(( أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ،
اللَّهُمَّ اجْعَلْنِي مِنَ التَّوَّابِينَ وَاجْعَلْنِي مِنَ الْمُتَطَهِّرِينَ ))

"Əşhədu ən lə ilahə illəllah və ənnə Muhəmmədən abdullahi və Rəsuluh. Allahumməc'alni minət-təvvabinə vəc'alni minəl-mutətahhirin![1]"– deyərsə, Cənnətin səkkiz qapısı

---

"İslam alimlərinin əksəriyyəti "Bismilləh!" deyilmədən alınan dəstəmazın səhih (keçərli) olduğunu demişlər. Bəzi elm əhli isə dəstəmazdan qabaq "Bismilləh!" deməyin vacib olduğunu söyləmiş və Peyğəmbərin ﷺ "Bismilləh!" deməyən kimsənin dəstəmazı qəbul edilməz" hədisinə əsaslanmışlar. "Bismilləh!" deməyən vacib olduğunu nəzər alsaq belə, demək olar ki, kim bunu unudaraq və ya savadsızlığı üzündən tərk edərsə, dəstəmazı səhih sayılar və ona yenidən dəstəmaz almaq lazım gəlməz. Çünki beləsi üzürlü hesab edilir. Buna da Allahın bu ayəsini (əl-Bəqərə, 286) dəlil göstərmək olar: **"Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma!"** (Məcmu Fətavə, 7/100).

[1] Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur və *şahidlik edirəm ki,* Muhəmməd Allahın qulu və rəsuludur. Allahım, məni tövbə edənlərdən və təmizlənənlərdən et!

onun üçün açılar və o, hansından istəsə, *oradan Cənnətə* daxil olar."[1]

**(11)** Peyğəmbər ﷺ demişdir: "Kim dəstəmaz aldıqdan sonra:

(( سُبْحَانَكَ اللهُمَّ، وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ ))

"Subhanəkəllahummə və bihəmdik, əşhədu ən lə ilahə illə ənt, əstəğfirukə və ətubu ileyk![2]"– desə, bu, nazik dəriyə yazılar, sonra üzərinə möhür vurular və bu möhür Qiyamət gününədək sındırılmaz."[3]

## Yeməyə başlayarkən edilən zikr

**(12)** Ömər ibn Əbu Sələmə ؓ demişdir: "Mən Peyğəmbərin ﷺ himayəsi altında böyüyən bir uşaq idim. Yemək yeyəndə mən əlimi

---

[1] "Səhih Muslim", 553; "Sunən ət-Tirmizi", 96.

[2] Tərcüməsi: Allahım, Sən pak və müqəddəssən! Həmd Sənə məxsusdur! Mən şahidlik edirəm ki, Səndən başqa *haqq* məbud yoxdur. Mən Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm!

[3] "Mustədrək əl-Hakim", 1/564; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2333.

qabın hər tərəfinə uzadardım. *Bir dəfə* Peyğəmbər ﷺ mənə belə buyurdu: "Balaca, "Bismilləh!" de, özün də sağ əllə və öz qabağından ye!" O gündən bəri mən yeməyi ancaq bu qaydada yeyirəm."[1]

**(13)** Əbu Hureyrə ؓ demişdir: "Rəsulullah ﷺ suyu üç nəfəsə içər, əvvəlində "Bismilləh!", axırında da "Əlhəmdulilləh!"– deyərdi."[2]

**(14)** Yeməyə başladıqda Allahdan bərəkət diləmək də Sünnəyə müvafiqdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Qoy, Allahın yemək verdiyi kimsə desin:

(( اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَارْزُقْنَا خَيْرًا مِنْهُ ))

"Allahummə, barik lənə fihi vərzuqnə xayran minh![3]"

Allahın süd nəsib etdiyi kimsə isə desin:

(( اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ وَزِدْنَا مِنْهُ ))

---

[1] "Səhih əl-Buxari", 5376; "Səhih Muslim", 6/109.

[2] "Aməlul-Yovm vəl-Leylə", İbn Sunni, 471; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 4956.

[3] Tərcüməsi: Allahım, bunu bizim üçün bərəkətli et və bizə bundan daha xeyirlisini nəsib et!

"Allahummə, barik lənə fihi və zidnə minh![1]"[2]

**(15)** Rəsulullah ﷺ demişdir: "Kim yeməyə başladıqda Allahın adını zikr etməyi unutsa, qoy desin:

(( بِسْمِ اللهِ أَوَّلَهُ وَآخِرَهُ ))

"Bismilləhi fi əvvəlihi və axirih![3]"[4]

## Yeməyi bitirdikdən sonra edilən zikrlər

**(16)** Rəsulullah ﷺ demişdir: "Hər kim yeməyini bitirdikdən sonra:

((الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي هَذَا الطَّعَامَ، وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّي وَلاَ قُوَّةٍ ))

---

[1] Tərcüməsi: Allahım, bunu bizim üçün bərəkətli et və bizə bundan artığını nəsib elə!
[2] "Sunən Əbu Davud", 3730; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2320.
[3] Tərcüməsi: Əvvəldə də, axırda da Allahın adı ilə!
[4] "Aməlul-Yovm vəl-Leylə", İbn Sunni, 453; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 198.

"Əlhəmdulillahil-ləzi ət'əməni həzə və rəzəqənihi min ğeyri hovlin minni və lə quvvəh![1]"– desə, keçmiş günahları bağışlanar."[2]

**(17)** Əbu Umamə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ yeməyini bitirdikdə deyərdi:

(( الْحَمْدُ لِلَّهِ حَمْداً كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ غَيْرَ مَكْفِيٍّ وَلاَ مُوَدَّعٍ وَلاَ مُسْتَغْنًى عَنْهُ رَبَّنَا ))

"Əlhəmdulillahi həmdən, kəsiran, tayyibən, mubarəkən fih, ğeyra məkfiyyin, və lə muvəddəin, və lə mustəğnən anhu rabbənə![3]"[4] Əbu Umamədə ﵁ rəvayət edilmiş digər hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ yeməyini bitirdikdə deyərdi:

(( الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانَا وَأَرْوَانَا غَيْرَ مَكْفِيٍّ وَلاَ مَكْفُورٍ ))

---

[1] Tərcüməsi: Bu yeməyi mənə yedirdən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!

[2] "Sunən Əbu Davud", 4023; bu hədis "həsən"dir, bax: "Səhih əl-Cami", 6086.

[3] Tərcüməsi: Allaha həmd olsun, *özü də* çoxlu, xoş, mübarək, *sonsuz*, ardı-arası kəsilməyən, hər kəsin möhtac olduğu bir həmd!

[4] "Səhih əl-Buxari", 5458.

“Əlhəmdulillahil-ləzi kəfanə və ərvanə ğayra məkfiyyin və lə məkfurin![1]”[2]

**(18)** Rəvayət edilir ki, Peyğəmbərin ﷺ qabağına yemək qoyulduqda “Bismilləh!” deyib yeməyə başlayar, yeməyi bitirdikdə isə:

(( اللَّهُمَّ أَطْعَمْتَ وَأَسْقَيْتَ، وَأَغْنَيْتَ وَأَقْنَيْتَ، وَهَدَيْتَ وَأَحْيَيْتَ، فَلَكَ الْحَمْدُ عَلَى مَا أَعْطَيْتَ ))

“Allahummə, ət'əmtə, və əsqaytə, və əğnəytə, və əqnəytə, və hədəytə, və əhyəytə, fələkəl-həmdu alə mə ə'təyt![3]”[4]

**(19)** Əbu Əyyub ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ yeməyini və içməyini bitirdikdə deyərdi:

(( الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَ وَسَقَى وَسَوَّغَهُ وَجَعَلَ لَهُ مَخْرَجًا ))

---

[1] Tərcüməsi: Ehtiyacımızı ödəyən və susuzluğumuzu yatıran Allaha həmd olsun, *özü də,* sonsuz və inkar olunmayan bir həmd!

[2] “Səhih əl-Buxari”, 5459.

[3] Tərcüməsi: Allahım, *bəndələrinə* yemək yedirdən, su içirdən, zənginlik bəxş edən, qane edən, hidayət verən və dirildən *Sənsən*! Verdiyin *nemətlərə* görə Sənə həmd-sənalar olsun!

[4] “Musnəd İmam Əhməd”, 4/62; bu hədis “səhih”dir, bax: “Silsilətul-Əhadisis-Səhihə”, 71.

"Əlhəmdulillahil-ləzi ət'əmə və səqa, və səvvəğəhu və cəalə ləhu məxrəcə![1]"[2]

## Evdən çıxarkən edilən zikrlər

**(20)** Rəsulullah ﷺ demişdir: "Adam evindən bayıra çıxdığı zaman:

(( بِسْمِ اللهِ تَوَكَّلْتُ عَلَى اللهِ،
لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللّهِ ))

"Bismilləh, təvəkkəltu aləllah! Lə hovlə və lə quvvətə illə billəh![3]"– desə, həmin vaxt *mələk ona*: "Doğru yola yönəldin, *işlərin* yoluna qoyuldu, *şərdən* qorundun!"– deyər, üstəlik, şeytan ondan uzaq durar və şeytanlardan biri o birisinə deyər: "Doğru yola yönəlmiş, *işləri* yoluna qoyulmuş və *şərdən* qorunmuş adama sən nə edə bilərsən?!"[4]

---

[1] Tərcüməsi: Yemək yedirdən və su içirdən, onun həzmini asanlaşdıran və onun üçün ifrazat yolu açan Allaha həmd olsun!

[2] "Sunən Əbu Davud", 3851; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2061.

[3] Tərcüməsi: Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır!

[4] "Sunən Əbu Davud", 5095; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 499.

**(21)** Ummu Sələmə ﵂ demişdir: “Peyğəmbər ﷺ evdən çıxdıqda həmişə deyərdi:

(( اللَّهُمَّ أَعُوذُ بِكَ أَنْ أَضِلَّ، أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ، أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ، أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ، أَوْ يُجْهَلَ عَلَيَّ ))

“Allahummə inni əuzu bikə ən ədıllə, əu udallə, əu əzillə, əu uzəllə, əu əzlimə, əu uzləmə, əu əchələ, əu yuchələ aleyy![1]”[2]

## Məscidə gedərkən edilən zikr

**(22)** İbn Abbas ﵄ demişdir: Rəsulullah ﷺ evindən çıxıb namaza gedərkən deyərdi:

(( اللهُمَّ اجْعَلْ فِي قَلْبِي نُورًا، وَفِي لِسَانِي نُورًا، وَاجْعَلْ فِي سَمْعِي نُورًا، وَاجْعَلْ فِي بَصَرِي نُورًا، وَاجْعَلْ مِنْ خَلْفِي نُورًا، وَمِنْ أَمَامِي نُورًا، وَاجْعَلْ مِنْ فَوْقِي نُورًا، وَمِنْ تَحْتِي نُورًا، اللهُمَّ أَعْطِنِي نُورًا ))

---

[1] Tərcüməsi: Allahım, doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram!

[2] “Sunən ət-Tirmizi”, 3423; bu hədis “səhih”dir, bax: “Silsilətul-Əhadisis-Səhihə”, 3163.

"Allahumməc'al fi qalbi nuran, və fi lisani nuran, vəc'al fi səm'i nuran, vəc'al fi basari nuran, vəc'al min xəlfi nuran, və min əmami nuran, vəc'al min fovqi nuran, və min təhti nuran, Allahummə ə'tıni nura![1]"[2]

## Məscidə girərkən edilən zikr

**(23)** Abdullah ibn Amr ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ məscidə daxil olmaq istədikdə deyərdi:

(( أَعُوذُ بِاللَّهِ الْعَظِيمِ، وَبِوَجْهِهِ الْكَرِيمِ، وَسُلْطَانِهِ الْقَدِيمِ، مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ))

"Əuzu billəhil-azim, və bivəchihil-kərim, və sultanihil-qadim minəş-şeytanir-rəcim![3]" Bu zikri deyən adam haqqında şeytan: "Bu gün o məndən qorundu"– deyər."[4]

---

[1] Tərcüməsi: Allahım, qəlbimə və dilimə nur saç! Qulağıma və gözümə nur saç! Arxama və önümə nur saç! Başımın üstündən və ayağımın altından nur saç! Allahım, mənə nur bəxş et!

[2] "Səhih Muslim", 763.

[3] Tərcüməsi: Allahın rəhmətindən qovulmuş şeytandan Böyük Allaha, Onun kəramətli Üzünə və əzəli hökmünə sığınıram!

[4] "Sunən Əbu Davud", 466; bu hədis "səhih"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1606.

**(24)** Bunun ardınca de:

(( بِسْمِ اللهِ والصَّلاةُ والسَّلامُ عَلَى رَسُولِ اللهِ، اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ ))

"Bismilləh, vəs-səlatu vəs-səlamu alə Rasulilləh, Allahumməftəh li əbvabə rahmətik![1]"[2]

## Azanı eşitdikdə oxunan zikrlər

**(25)** Rəsulullah ﷺ demişdir: "Azanı eşidəndə müəzzinin dediklərini təkrar edin."[3]

**(26)** Rəsulullah ﷺ demişdir: "Müəzzin Allahu Əkbər, Allahu Əkbər dediyi zaman, hər hansı biriniz Allahu Əkbər, Allahu Əkbər desə; müəzzin əşhədu ən lə ilahə illəllah dedikdə, o da, əşhədu ən lə ilahə illəllah desə; sonra müəzzin əşhədu ənnə Muhəmmədən rasulullah dedikdə, o da, əşhədu ənnə Muhəmmədən rasulullah desə; sonra müəzzin hayyə aləs-saləh dedikdə, o, lə hovlə və lə quvvətə illə billəh desə; müəzzin hayyə aləl-

[1] Tərcüməsi: Allahın adı ilə, Rəsulullaha salavat və salam olsun! Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!

[2] "Sunən Əbu Davud", 1/260; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 514.

[3] "Səhih Buxari", 611; "Səhih Muslim", 848.

fələh dedikdə, o *yenə* lə hovlə və lə quvvətə illə billəh desə; sonra müəzzin Allahu Əkbər, Allahu Əkbər dedikdə, o da, Allahu Əkbər, Allahu Əkbər desə; sonra müəzzin lə ilahə illəllah dedikdə, o da, qəlbən inanaraq lə ilahə illəllah desə, Cənnətə daxil olar."[1]

**(27)** Rəsulullah ﷺ demişdir: "Müəzzinin azan verdiyini eşidən adam:

(( وَأَنَا أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، رَضِيتُ بِاللَّهِ رَبًّا وَبِمُحَمَّدٍ رَسُولاً وَبِالإِسْلاَمِ دِينًا ))

"Və ənə əşhədu ən lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, və ənnə Muhəmmədən abduhu və rəsuluh, raditu billəhi Rabbən və bi Muhəmmədin rasulən və bil-İslami dinə!"– desə, onun günahı bağışlanar.[2]"[3]

Bu, müəzzinin şəhadət gətirməyinin ardınca deyilir.[4]

---

[1] "Səhih Muslim", 850.

[2] Tərcüməsi: Mən də şahidlik edirəm ki, Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin rəsul və İslamın din olduğundan razıyam!

[3] "Səhih Muslim", 851.

[4] "Səhih İbn Xuzeymə", 1/220.

**(28)** Rəsulullah ﷺ demişdir: “Müəzzinin azan verdiyini eşitdiyiniz vaxt siz də onun dediklərini təkrar edin. Sonra mənə salavat oxuyun. Hər kim mənə bir salavat oxuyarsa, Allah ona bunun sayəsində onunu yetirər. Sonra Allahdan mənim üçün vasitəçilik haqqı diləyin. Çünki, vasitəçilik Cənnətdə Allahın qullarından yalnız birinə məxsus olan bir məqamdır. Umuram ki, o qul mən olum. Hər kim mənim üçün *Allahdan* vasitəçilik haqqı diləyərsə, şəfaətimə nail olar.”[1]

Salavatın ləfzinə dair Sünnədə ayrı-ayrı hədislər varid olmuşdur. Bunların ən yığcam və məna baxımından ən əhatəli olanlarından biri aşağıdakı hədisdə öz əksini tapmışdır:

Talhə ibn Ubeydullah ؓ demişdir: “Biz Peyğəmbərdən ﷺ soruşduq: “Ya Rəsulullah, sənə salamı necə verməyi bilirik. Bəs salavatı necə deyək?”O, buyurdu: “Deyin:

(( اللهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيْتَ وَبَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ، إِنَّكَ حَمِيْدٌ مَجِيدٌ ))

[1] “Səhih Muslim”, 849.

"Allahummə, salli alə Muhəmmədin və əla ali Muhəmməd, və barik alə Muhəmmədin və əla ali Muhəmməd, kəmə salləytə və barəktə alə İbrahimə və əla ali İbrahim, innəkə həmidun məcid![1]"[2]

**(29)** Peyğəmbərə ﷺ salavat gətirdikdən sonra Allahdan onun üçün vasitəçilik haqqı diləmək gərəkdir.

Bu xüsusda, Rəsulullah ﷺ belə buyurmuşdur: "Hər kim azanı eşitdikdə:

(( اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ وَالصَّلاَةِ الْقَائِمَةِ آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِى وَعَدْتَهُ ))

"Allahummə, Rabbə hazihid-dəvətit-tammə, vəs-səlatil-qaimə, ati Muhəmmədən əl-vəsilətə vəl-fədiləh, vəb'ashu məqamən məh-

---

[1] Tərcüməsi: Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua və bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua və bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!

[2] "Şərh Muşkilil-Əsar", ət-Təhavi, 2240; bu hədis "səhih"dir, bax: "əs-Səmərul-Mustətab", 186.

mudənilləzi vəadtəh!"[1]– desə, Qiyamət günü mənim şəfaətimə qovuşar."[2]

**(30)** Digər hədisdə Rəsulullah ﷺ demişdir: "Hansı bir müsəlman azanı eşitdikdə, müəzzinin dediklərini təkrar etsə, sonra da:

(( اللَّهُمَّ أَعْطِ مُحَمَّدًا الْوَسِيلَةَ وَاجْعَلْ فِي الأَعْلَيْنِ دَرَجَتَهُ وَفِي الْمُصْطَفَيْنَ مَحَبَّتَهُ وَفِي الْمُقَرَّبِينَ ذِكْرَهُ ))

"Allahummə, ə'ti Muhəmmədən əl-vəsiləh, vəc'alhu fil-ə'leyni dərəcətəh, və fil-mustəfinə məhəbbətəh, və fil-muqarrabinə zikrah"[3] – desə, Qiyamət günü mənim şəfaətim ona vacib olar."[4]

**(31)** Peyğəmbərə ﷺ vasitəçilik haqqı dilədikdən sonra həm özün, həm də cəmi müsəlmanlar üçün istədiyin qədər dua edə bilər-

---

[1] Tərcüməsi: Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən məqama çatdır!

[2] "Səhih əl-Buxari", 614.

[3] Tərcüməsi: Allahım, Muhəmmədə vasitəçilik haqqı ver və onu ən yüksək məqama çatdır, onu seçilmiş, sevilən və adı dillər əzbəri olan ən yaxın qullarından et!

[4] "əl-Mocəm ət-Təbərani", 433; bu hədis "səhih"dir, bax: "əs-Səmərul-Mustətab", 192.

sən. Bu xüsusda, Rəsulullah ﷺ belə buyurmuşdur: "Azanla iqamə arasında edilən dua qəbul edilir. Elə isə, dua edin!"[1]

O, həmçinin demişdir: "Azanla iqamə arasında edilən dua rədd edilməz."[2]

## Salam verib namazı bitirdikdən sonra edilən zikrlər

**(32)** Sovban رضي الله عنه demişdir: "Rəsulullah ﷺ namazı bitirdikdən sonra üç dəfə *Allahdan* bağışlanma diləyər, sonra da deyərdi:

(( اللَّهُمَّ أَنْتَ السَّلاَمُ وَمِنْكَ السَّلاَمُ، تَبَارَكْتَ يَا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ ))

"Allahummə, əntəs-səlam və minkəs-səlam, təbarəktə ya zəl-cəlali vəl-ikram![3]"

Vəlid demişdir: "Mən Əvzaidən soruşdum: "Necə bağışlanma diləyrisən?" O, belə cavab

---

[1] "Sunən Əbu Davud", 1/260; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 514.

[2] "Sunən Əbu Davud", 521; bu hədis "səhih"dir, bax: "Mişkatul-Məsabih", 671.

[3] Tərcüməsi: Allahım, əs-Səlam Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi, Sənin xeyir və bərəkətin boldur!

verdi: "Əstəğfirullah, əstəğfirullah, *əstəğfirullah*!"– deyirsən."[1]

**(33)** Muğira ibn Şobə ﷺ demişdir: "Rəsulullah ﷺ namazı bitirib salam verdikdən sonra deyərdi:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ ))

"Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Allahummə, lə maniə limə ə'tayt, və lə mu'tiyə limə mənə't, və lə yənfəu zəlcəddi minkəl-cədd![2]"[3]

---

[1] "Səhih Muslim", 2/94.

[2] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir! Allahım, Sənin *nemət* verdiyinə mane olacaq, mane olduğunu da verəcək *bir kəs* yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz!

[3] "Səhih əl-Buxari", 844; "Səhih Muslim", 2/95.

**(34)** Rəvayət edilir ki, İbn əz-Zubeyr ﷺ namazı bitirib salam verdikdən sonra:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَلاَ نَعْبُدُ إِلاَّ إِيَّاهُ لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ ))

"Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Lə hovlə və lə quvvətə illə billəh. Lə ilahə illəllah, və lə nə'budu illə iyyah. Ləhun-ni'mətu və ləhul-fədlu və ləhus-sənaul-həsən. Lə ilahə illəllah, muxlisinə ləhud-dinə və lov kərihəl-kafirun![1]"– deyə zikr etmiş, sonra demişdir: "Rəsulullah ﷺ belə zikr edərdi."[2]

---

[1] Tərcüməsi: Allahdan başqa *haqq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Qüdrət və güc yalnız Allahdadır! Allahdan başqa haqq məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!

[2] "Səhih Muslim", 2/94.

**(35)** Otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz üç dəfə "Allahu Əkbər!" demək.

Rəsulullah ﷺ demişdir: "Kim hər namazdan sonra otuz üç dəfə Allahın şəninə tərif deyər, otuz üç dəfə Allaha həmd edər və otuz üç dəfə Allaha təkbir gətirərsə, beləcə, bunların sayı doxsan doqquz olar və bunun ardından:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَىْءٍ قَدِيرٌ ))

"Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir!"[1] deməklə yüzü tamamlayarsa, o adamın günahları dəniz köpükləri qədər olsa belə bağışlanar."[2]

– Yaxud otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz dörd dəfə "Allahu Əkbər!" demək.

Rəsulullah ﷺ demişdir: "Namazdan sonra deyiləcək bəzi gözəl kəlmələr vardır ki, bunları deyən və ya bunları yerinə yetirən kəs heç

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir!

[2] "Səhih Muslim", 1352.

vaxt naümid qalmaz və ziyana uğramaz. Hər vacib namazdan sonra otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz dörd dəfə "Allahu Əkbər!" demək.[1]

– Yaxud iyirmi beş dəfə "Subhanəllah!", iyirmi beş dəfə "Əlhəmdulilləh!", iyirmi beş dəfə "Allahu Əkbər!" və iyirmi beş dəfə "Lə ilahə illəllah!"demək.

İbn Ömər ﵄ rəvayət edir ki, (Rəsulullahın ﷺ dövründə ənsardan) bir nəfər yuxu gördü və yuxuda ondan: "Peyğəmbəriniz ﷺ sizə nə buyurmuşdur?"– deyə soruşuldu. O dedi: "O bizə otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz dörd dəfə "Allahu Əkbər!" deməyi buyurmuşdur. Bunların cəmi yüz edir." Sual verən adam dedi: "İyirmi beş dəfə "Subhanəllah!", iyirmi beş dəfə "Əlhəmdulilləh!", iyirmi beş dəfə "Allahu Əkbər!" və iyirmi beş dəfə "Lə ilahə illəllah!" demək. Bunların da cəmi yüz edir." Adam səhər yuxudan oyandıqdan sonra gəlib yuxusunu Peyğəmbərə ﷺ danışdı. Onda, Rəsulullah ﷺ belə buyurdu: "Ənsardan olan *bu adamın* dediyi kimi zikr edin!"[2]

---

[1] "Səhih Muslim", 1349.

[2] "Sunən ən-Nəsai", 1351; bu hədis "həsən-səhih"dir, bax: "Səhih ən-Nəsai".

– Yaxud on dəfə “Subhanəllah!”, on dəfə “Əlhəmdulilləh!” və on dəfə “Allahu Əkbər!” demək.

Rəsulullah ﷺ demişdir:[1] “İki xislət vardır ki, onlara davamlı olaraq əməl edən müsəlman kəs mütləq Cənnətə girər. Bu iki xisləti *dildə tələffüz etmək* çox asan, onlara əməl edən isə çox azdır.” Soruşdular: “Nədir bu iki xislət, ya Rəsulullah?” O buyurdu: “Qoy, sizlərdən *hər* biri hər namazın sonunda on dəfə “Allahu Əkbər”, on dəfə “Əlhəmdulilləh” və on dəfə “Subhanəllah” desin. Bu zikrlər dildə yüz əlli, tərəzidə isə min beş yüzə *bərabərdir...*[2]”

[1] “Sunən Əbu Davud”, 1346; bu hədis “səhih”dir, bax: “Səhih əl-Ədəbul-Mufrad”, 1216.

[2] Hər namazın sonunda oxunan bu zikrlərin sayı cəmi otuza bərabərdir. Bu sayı beşə vuranda yüz əlli edir, yəni gün ərzində qılınan beş namazda oxunan bu zikrləri topladıqda, onların sayı yüz əlliyə bərabər olur. Sonra qeyd edək ki, hər bir həsənət onun on mislinə bərabərdir. Bu da, o deməkdir ki, bu zikrlərin cəminin on misli min beş yüzə bərabərdir. Şeyx Muhəmməd ibn Saleh əl-Useymin demişdir: “Namazlardan sonra otuz üç dəfə “Subhanəllah!”, otuz üç dəfə “Əlhəmdulilləh!”, otuz üç dəfə “Allahu Əkbər!” demək və “Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir!” deməklə bu zikrlərin sayını yüzə tamamlamaq, habelə, iyirmi beş dəfə “Subhanəllah!”, iyirmi beş dəfə “Əlhəm-

**(36)** Uqbə ibn Amir ﵁ demişdir: "Rəsulullah ﷺ mənə *fərz* namazını bitirdikdən sonra "əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini *bir dəfə* oxumağı əmr etmişdir."[1]

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ﴿١﴾ ٱللَّهُ ٱلصَّمَدُ ﴿٢﴾ لَمْ يَلِدْ وَلَمْ
يُولَدْ ﴿٣﴾ وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ﴿٤﴾﴾[2]

---

dulilləh!", iyirmi beş dəfə "Lə ilahə illəllah!" və iyirmi beş dəfə "Allahu Əkbər!" demək, beləliklə də, bu sayı yüzə çatdırmaq, həmçinin, otuz üç dəfə "Subhanəllah!", otuz üç dəfə "Əlhəmdulilləh!" və otuz dörd dəfə "Allahu Əkbər!" demək və yenə zikrlərin sayını yüzə çatdırmaq və nəhayət, on dəfə "Subhanəllah!", on dəfə "Əlhəmdulilləh!" və on dəfə "Allahu Əkbər!" demək səhih hədislərdə öz əksini tapmışdır. *Fərz* namazlarından sonra bu *dörd növ* zikrdən istənilən birini – hərdən buirini, hərdən o birini etmək caizdir. Çünki bunların hamısı Peyğəmbərdən ﷺ varid olmuşdur" (Şərh Riyadus-Salihin, 1418-ci hədisin şərhi).

[1] "Sunən Əbu Davud", 1523; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 1514.

[2] Transkripsiyası: Bismilləhir-Rəhmanir-Rəhim. Qul huvəllahu əhəd. Allahus-Saməd. Ləm yəlid vələm yuləd, vələm yəkul-ləhu kufuvən əhəd.

Tərcüməsi: Mərhəmətli, Rəhmli Allahın adı ilə! "De: "O Allah Təkdir! Allah *heç kəsə, heç nəyə* Möhtac deyildir.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلْفَلَقِ ① مِن شَرِّ مَا خَلَقَ ② وَمِن شَرِّ
غَاسِقٍ إِذَا وَقَبَ ③ وَمِن شَرِّ ٱلنَّفَّٰثَٰتِ فِى ٱلْعُقَدِ
④ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ ⑤﴾[1]

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلْ أَعُوذُ بِرَبِّ ٱلنَّاسِ ① مَلِكِ ٱلنَّاسِ ② إِلَٰهِ
ٱلنَّاسِ ③ مِن شَرِّ ٱلْوَسْوَاسِ ٱلْخَنَّاسِ ④ ٱلَّذِى يُوَسْوِسُ
فِى صُدُورِ ٱلنَّاسِ ⑤ مِنَ ٱلْجِنَّةِ وَٱلنَّاسِ ⑥﴾[2]

---

O, nə doğub, nə də doğulub. Və Onun bənzəri də yox-dur!"

[1] Transkripsiyası: Bismilləhir-Rəhmanir-Rəhim. Qul əuzu birabbil-fələq. Min şərri ma xələq. Və min şərri ğasiqin izə vəqab. Və min şərrin-nəffəsəti fil uqad. Və min şərri həsidin izə həsəd.

Tərcüməsi: Mərhəmətli, Rəhmli Allahın adı ilə! "De: "Sığınıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən, çökən zülmətin şərindən, düyünlərə üfürən *cadugər* qadınların şərindən və həsəd apardığı zaman paxılın şərindən!"

[2] Transkripsiyası: Bismilləhir-Rəhmanir-Rəhim. Qul əuzu birabbinnəs. Məlikinnəs. İlahinnəs. Min şərril-

**(37)** Rəsulullah ﷺ demişdir: “Kim hər *fərz* namazından sonra *bir dəfə* “Kursi” ayəsini[1] oxusa, onun Cənnətə girməyinin qarşısında yalnız ölümü dura bilər.”[2]

﴿ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ لَا تَأۡخُذُهُۥ سِنَةٞ وَلَا نَوۡمٞۚ
لَّهُۥ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَمَا فِي ٱلۡأَرۡضِۗ مَن ذَا ٱلَّذِي يَشۡفَعُ عِندَهُۥٓ
إِلَّا بِإِذۡنِهِۦۚ يَعۡلَمُ مَا بَيۡنَ أَيۡدِيهِمۡ وَمَا خَلۡفَهُمۡۖ وَلَا يُحِيطُونَ مِّنۡ
عِلۡمِهِۦٓ إِلَّا بِمَا شَآءَۚ وَسِعَ كُرۡسِيُّهُ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۖ وَلَا
يَـُٔودُهُۥ حِفۡظُهُمَاۚ وَهُوَ ٱلۡعَلِيُّ ٱلۡعَظِيمُ ٢٥٥ ﴾[3]

---

vəsvasil-xannəs. Əlləzi yuvəsvisu fi sudurinnəs. Minəl-cinnəti vənnəs.

Tərcüməsi: Mərhəmətli, Rəhmli Allahın adı ilə! “De: “Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, *Allahın adı çəkiləndə isə hövlündən* geri çəkilən *şeytanın* şərindən. *O şeytan* ki, insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də *olur*, insanlardan da!”

[1] Yəni “əl-Bəqərə” surəsinin 255-ci ayəsi.

[2] “Aməlul-Yovm vəl-Leylə”, İbn Sunni, 121; bu hədis “səhih”dir, bax: “Səhih əl-Cami”, 6464.

[3] Transkripsiyası: Allahu lə ilahə illə huvəl-həyyul-qəyyum. Lə tə'xuzuhu sinətun vələ novm. Ləhu mə fis-səmavati və mə fil-ard. Mən zəlləzi yəşfə'u indəhu illə bi

**(38)** Rəsulullah ﷺ demişdir: "Hər kim məğrib və bir də sübh namazını qıldıqdan sonra, *namaz qıldığı* yerdən qalxmamış və *təşəhhüddə oturduğu* vəziyyətini dəyişməmiş on dəfə:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

"Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmd, yuhyi və yumit, və huvə alə kulli şeyin qadir[1]"– desə, ona hər

---

iznihi, yə'ləmu mə beynə əydihim və mə xəlfəhum. Və lə yuhiytunə bişeyin min ilmihi illə bimə şəə. Vəsiə kursiyyuhus-səmavati vəl-ard. Və lə yəuduhu hifzuhumə, və huvəl-aliyyul-azim.

Tərcüməsi: Allah, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, *məxluqatın* gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur, dirildən də, öldürən də Odur, və O, hər şeyə Qadirdir!

birinə görə on savab yazılar, onun on günahı silinər və onun üçün on dərəcə yüksələr. Üstəlik, bu kəlmələr onu hər bir xoşagəlməz şeydən və qovulmuş şeytandan qoruyar. Habelə, şirkdən başqa heç bir günah onun əməlini puç etməz və o, əməl baxımından ən fəzilətli insanlardan sayılar. Yalnız onun dediyindən daha xeyirlisini deyən kimsələr istisnadır."[1]

**(39)** Ummu Sələmə ﵂ demişdir: "Rəsulullah ﷺ sübh namazını bitirdikdən sonra:

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْمًا نَافِعًا، وَرِزْقًا طَيِّبًا، وَعَمَلاً مُتَقَبَّلاً ))

"Allahummə, inni əs'əlukə ilmən nafiən, və rizqan tayyibən, və amələn mutəqabbələ![2]"[3]

---

[1] "Musnəd İmam Əhməd", 5/420; bu hədis "həsən"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 114. Təbəraninin "əl-Mocəmul-Kəbir" əsərindəki (8/336/8075) rəvayətdə bu zikrin yüz dəfə deyilməsi xəbər verilir. Şeyx Muhəmməd Nasirəddin əl-Albani ﵀ bu rəvayətləri nəql etdikdən sonra demişdir: "Hər ikisini etmək (yəni bu zikri on dəfə, yaxud yüz dəfə təkrar etmək) caizdir" (Silsilətul-Əhadisis-Səhihə, 2664).

[2] Tərcüməsi: Allahım, Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirəm!

[3] "Sunən İbn Macə", 925; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 114.

## Səhər və axşam zikrləri[1]

**(40)** "əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini üç dəfə oxumaq.

Abdullah ibn Xubeyb ﷺ demişdir: "Bir dəfə yağışlı bir gecədə biz Rəsulullahın ﷺ yanına gəldik ki, bizə namaz qıldırsın. Biz onun yanına gəlib çatdıqda, o: "Namaz qıldınızmı?"– deyə soruşdu. Mən heç nə demədim. O buyurdu: "De!" Mən heç nə demədim. Sonra yenə buyurdu: "De!" Mən heç nə demədim. Sonra bir daha buyurdu: "De!" Mən soruşdum: "Ya Rəsulullah, nə deyim?" O buyurdu: "Axşam olduqda və səhər çıxdıqda, üç dəfə "De: O Allah Təkdir!" və "əl-Muəvvizəteyn"[2] surələrini oxusan, bunlar

---

[1] Peyğəmbər ﷺ demişdir: "Mənim üçün sübh namazından günçıxanadək Allahı zikr edən bir camaatla oturmaq İsmail övladından dörd qul azad etməkdən daha sevimlidir. *Həmçinin,* əsr namazından günbatanadək Allahı zikr edən bir camaatla oturmaq mənim üçün dörd qul azad etməkdən daha sevimlidir" ("Sunən Əbu Davud", 3667; bu hədis "həsən"dir, bax: "Səhih Əbu Davud", 2/698).

[2] Yəni "əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələri.

sənə hər bir *zərərverici* şeydən *qorunmaq üçün* kifayət edər."[1]

**(41)** Muhəmməd ibn Ubeyy ibn Kəb demişdir: "Ubeyy ibn Kəbin cərinlərində[2] çoxlu xurma var idi. Ubeyy ara-sıra gedib bu yerlərə baş çəkərdi. Bir gün o, xurmaların azaldığını gördü və oturub ora qarovul çəkməyə başladı. Elə bu vaxt cavan oğlana bənzər bir heyvan yaxınlaşıb ona salam verdi. Ubeyy onun salamını aldıqdan sonra ondan: "Sən cinsən, yoxsa insan?"– deyə soruşdu. O, əlini *Ubeyyə tərəf* uzatdı. Əli it əlinə, tükləri də it tükünə bənzəyirdi. Ubeyy dedi: "Cinlər belə xəlq edilmişlər." O dedi: "Sən artıq cinləri tanıyırsan. Bil ki, onların arasında məndən sərti yoxdur." Ubeyy dedi: "Xurmaları götürməyə səni vadar edən nədir?" O dedi: "Biz öyrəndik ki, sən sədəqə verməyi xoşlayırsan. Elə buna görə də, sənin yeməyindən yeməyə gəldik." Ubeyy soruşdu: "Bizi sizdən nə qoruya bilər?" O dedi: "əl-Bəqərə" surəsindəki

---

[1] "Sunən Əbu Davud", 5082; bu hədis "səhih"dir, bax: "Səhih Əbu Davud" (Bu kitabçadakı 36 nömrəli zikrə bax).

[2] Cərin: xurma qurutmaq üçün ayırılmış yer.

**"Allah, Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur..."** ayəsi. [1] Hər kim axşam olduqda, bu ayəni oxuyarsa, səhərə qədər bizdən qorunar, eləcə də, səhərə çıxdıqda onu oxuyarsa, axşama qədər bizdən qorunar." Səhər açıldıqda Ubey Rəsulullahın ﷺ yanına gəlib başına gələnləri ona danışdı. Rəsulullah ﷺ dedi: "Xəbis doğru söylədi!"[2]

**(42)** Abdullah ibn Məsud ؓ demişdir: "Axşam olduqda Peyğəmbər ﷺ belə dua edərdi:

(( أَمْسَيْنَا وَأَمْسَى الْمُلْكُ لِلَّهِ وَالْحَمْدُ لِلَّهِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَخَيْرَ مَا بَعْدَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَشَرِّ مَا بَعْدَهَا، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ ))

---

[1] "Kursi" ayəsi (Bu kitabçadakı 37 nömrəli zikrə bax).

[2] "Aməlul-Yovm vəl-Leylə", ən-Nəsai, 960; bu hədis "səhih"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 662.

"Əmsəynə və əmsəl-mulku lilləh, vəlhəmdulilləh. Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Rabbi əs'ələlukə xayra mə fi həzihil-leylə və xayra mə bə'dəh, və əuzu bikə min şərri mə fi həzihil-leylə və şərri mə bə'dəh. Rabbi əuzu bikə minəl-kəsəli və suil-kibər. Rabbi əuzu bikə min əzabin fin-nari və əzabin fil-qabr![1]"

Səhərə çıxdıqda da, həmçinin, bu duanı oxuyardı:

(( أَصْبَحْنَا وَ أَصْبَحَ الْمُلْكُ للهِ، وَالْحَمْدُ للهِ، لاَ إِلَـهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَـهُ، لَـهُ الْمُلْكُ وَلَـهُ الْحَمْدُ وَهُـوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَـذَا الْيَـوْمِ

[1] Tərcüməsi: Axşama çıxdıq, hökm də Allahın olaraq axşama çıxdı. Allaha həmd olsun! Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Ey Rəbbim, Səndən bu gecənin xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu gecənin şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram!

وَخَيْرَ مَا بَعْدَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذَا الْيَوْمِ وَشَرِّ مَا بَعْدَهُ، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ ))

"Əsbəhnə və əsbəhəl-mulku lilləh, vəl-həmdulilləh. Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Rabbi əs'əlukə xayra mə fi həzəl-yovmi və xayra mə bə'dəh, və əuzu bikə min şərri mə fi həzəl-yovmi və şərri mə bə'dəh. Rabbi əuzu bikə minəl-kəsəli və suil-kibər. Rabbi əuzu bikə min əzabin fin-nari və əzabin fil-qabr![1]"[2]

**(43)** Əbu Hureyrə ﷺ demişdir: "Peyğəmbər ﷺ səhər çıxdıqda:

---

[1] Tərcüməsi: Səhərə çıxdıq, hökm də Allahın olaraq səhərə çıxdı. Allaha həmd olsun! Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Ey Rəbbim! Səndən bu günün xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu günün şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim! Tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim! Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram!

[2] "Səhih Muslim", 8/82.

(( اللَّهُمَّ بِكَ أَصْبَحْنَا، وَبِكَ أَمْسَيْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ النُّشُورُ ))

“Allahummə, bikə əsbəhnə, və bikə əmsəynə, və bikə nəhyə, və bikə nəmut, və ileykən-nuşur![1]”– deyər, axşam olduqda isə:

(( اللَّهُمَّ بِكَ أَمْسَيْنَا، وَبِكَ أَصْبَحْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ الْمَصِيرُ ))

“Allahummə, bikə əmsəynə, və bikə əsbəhnə, və bikə nəhyə, və bikə nəmut, və ileykəl-məsir![2]”– deyərdi.”[3]

**(44)** Peyğəmbər ﷺ demişdir:[4] “Seyyidul-istiğfar[5] belədir:

---

[1] Tərcüməsi: Allahım, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış Sənədir!

[2] Tərcüməsi: Allahım, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Dönüş Sənədir!

[3] “Sunən Əbu Davud”, 2/611; bu hədis “səhih”dir, bax: “Səhih əl-Ədəbul-Mufrad”, 1199.

[4] “Səhih əl-Buxari”, 6306.

[5] Peyğəmbər ﷺ bunu “seyyidul-istiğfar (istiğfarların ən hörmətlisi)” adlandırmışdır. Səbəbi də budur ki, onun ləfzi olduqca möhtəşəm mənaları özündə əks etdirir.

(( اللَّهُـمَّ أَنْـتَ رَبِّي لاَ إِلَـهَ إِلاَّ أَنْـتَ، خَلَقْتَـنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْـدِكَ وَوَعْـدِكَ مَـا اسْتَطَعْتُ، أَعُـوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ عَلَيَّ، وَأَبُوءُ بِذَنْبِي، فَاغْفِرْ لِي فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ ))

"Allahummə, əntə Rabbi lə ilahə illə ənt, xaləqtəni və ənə abduk, və ənə alə ahdikə və və'dikə məs-tətə't, əuzu bikə min şərri mə sanə't. Əbu'u ləkə bini'mətikə aleyy, və əbu'u bizənbi. Fəğfir li, fəinnəhu lə yəğfiruz-zunubə illə ənt![1]"

---

Adam bu zikri etməklə Allahın Tək İlah olduğunu təsdiqləyir, Allah qarşısında qul olduğunu etiraf edir, Ona itaət edəcəyinə söz verir, Onun ruzi verən və günahları bağışlayan Rəbb olduğunu iqrar edir və nəhayət, Ona sığınır. Xüsusilə, qeyd etmək lazımdır ki, Allahdan bağışlanma diləmək ruzi-bərəkət qazanmaq üçün səbəbdir.

[1] Tərcüməsi: Allahım, Sən mənim Rəbbimsən. Səndən başqa məbud yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!

**(45)** Abdur-Rəhman ibn Əbu Bəkrə ﷺ demişdir: "Bir gün mən atama dedim: "Atacan, mən sənin hər səhər üç dəfə və hər axşam üç dəfə:

(( اللَّهُمَّ عَافِنِي فِي بَدَنِي، اللَّهُمَّ عَافِنِي فِي سَمْعِي، اللَّهُمَّ عَافِنِي فِي بَصَرِي، لَا إِلَهَ إِلَّا أَنْتَ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكُفْرِ، وَالْفَقْرِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، لَا إِلَهَ إِلَّا أَنْتَ ))

"Allahummə, afini fi bədəni, Allahummə, afini fi səm'i, Allahummə, afini fi bəsari. Lə ilahə illə ənt. Allahummə, inni əuzu bikə minəl-kufri vəl-fəqr, və əuzu bikə min əzabil-qabr, lə ilahə illə ənt![1]"– deyə dua etdiyini eşidirəm. Atam dedi: "Mən Rəsulullahın ﷺ bu kəlmələrlə dua etdiyini eşitmişəm. Və mən onun Sünnəsini yerinə yetirməyi sevirəm."[2]

---

[1] Tərcüməsi: Allahım, bədənimi salamat et! Allahım, qulağımı salamat et! Allahım, gözümü salamat et! Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Allahım, küfrdən və yoxsulluqdan Sənə sığınıram, habelə, qəbir əzabından da Sənə sığınıram. Səndən başqa *ibadətə layiq* məbud yoxdur!!

[2] "Sunən Əbu Davud", 5090; bu hədis "səhih"dir, bax: "Səhih Əbu Davud".

**(46)** İbn Ömər ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻬﻤﺎ demişdir:[1] "Rəsulullah ﷺ səhər və axşam bu kəlmələri tərk etməzdi:

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ، وَأَهْلِي وَمَالِي. اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي. اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي ))

"Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyətə fid-dunya vəl-axira. Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyətə fi dini və dunyayə və əhli və mali. Allahumməstur aurati və amin rauati. Allahumməhfəzni min bəyni yədeyyə və min xalfi, və an yəmini və an şimali, və min fəuqi və əuzu biazəmətikə ən uğtalə min təhti![2]"

---

[1] "Sunən Əbu Davud", 5074; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", 465.

[2] Tərcüməsi: Allahım, dünyada və Axirətdə Səndən əfv və salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım, eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım, məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!

**(47)** Əbu Hureyrə ﷺ rəvayət edir ki, *bir gün* Əbu Bəkr ﷺ dedi: "Ya Rəsulullah, mənə elə bir şey öyrət ki, onu həm səhər, həm də axşam zikr edim." Rəsulullah ﷺ buyurdu: "De:

(( اللَّهُمَّ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي، وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ ))

"Allahummə, aliməl-ğaybi vəş-şəhadə, fatirəs-səmavati vəl-ərd, Rabbə kulli şeyin və məlikəh, əşhədu ən lə ilahə illə ənt, əuzu bikə min şərri nəfsi, və min şərriş-şeytani və şirkih, və ən əqtərifə alə nəfsi suə, əu əcurrəhu ilə muslim![1]"[2]

---

[1] Tərcüməsi: Qeybdə və aşkarda olanı Bilən, göyləri və yeri *yoxdan* yaradan, Allahım, hər şeyin Rəbbi və Hökmdarı! Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə layiq* məbud yoxdur. Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud onu bir müsəlmana yetirməkdən Sənə sığınıram!

[2] "Musnəd İmam Əhməd", 1/10; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", 1202 və 1204.

**(48)** Əban ibn Osman rəvayət edir ki, Osman *ibn Əffan* demişdir: "Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Kim hər səhər üç kərə və hər axşam üç kərə:

(( بِسْمِ اللهِ الَّذِي لاَ يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاءِ، وَهُوَ السَّمِيعُ العَلِيمُ ))

"Bismilləhil-ləzi lə yədurru məa ismihi şeyun fil-ardı və lə fis-səmai və huvəs-səmiul-alim![1]"– desə, heç bir şey ona zərər verməz."

Həmin vaxt Əban ibn Osman iflic olmuşdu. Hədisi dinləyən adam *təəccüblə* onun üzünə baxmağa başladı. Əban bu adamın *baxışlarından onun* məqsədini təxmin edib dedi: "Bu hədis sənə danışdığım kimidir. Lakin Allahın qədəri yerinə yetsin deyə, mənə həmin gün bu duanı oxumaq qismət olmamışdı."[2]

---

[1] Tərcüməsi: Allahın Adı ilə! O Allah ki, adı çəkildikdə, yerdə və göydə *olan* heç bir şey zərər verə bilməz. O, Eşidəndir, Biləndir!

[2] "Sunən Əbu Davud", 5088); "Sunən ət-Tirmizi", 3388; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", 660.

Əbu Davudun "Sunən" əsərindəki hədisdə rəvayət edilir ki, Əban o adama demişdir: "Niyə mənə *təəccüblə* baxırsan. Vallahi ki, nə mən Osmanın adından yalan

**(49)** Ənəs ibn Malik rəvayət etmişdir ki,[1] Rəsulullah ﷺ Fatiməyə رضي الله عنها belə buyurmuşdur: "Sənə verdiyim nəsihəti yerinə yetirməyə – hər səhər və hər axşam:

(( يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ، أَصْلِحْ لِي شَأْنِي كُلَّهُ ، وَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ ))

"Ya həyyu, ya qayyum! Birahmətikə əstəğis, əslih li şə'ni kulləh, və lə təkilni ilə nəfsi tarfətə ayn![2]"– deməyə mane olan nədir?!"

**(50)** Rəsulullah ﷺ demişdir: "Kim gün ərzində <u>yüz dəfə</u>:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

---

danışır, nə də Osman Peyğəmbərin ﷺ adından yalan danışmışdır. Sadəcə olaraq, bu fəlakət mənim başıma gəldiyi gün qəzəbli olduğumdan, bu duanı deməmişdim."

[1] "Mustədrək əl-Hakim", 2000; bu hədis "həsən"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 661.

[2] Tərcüməsi: Ey *əbədi* Yaşayan, *ey yaradılanların* Qəyyumu! Mərhəmətinlə kömək diləyirəm. Mənim bütün işlərimi yoluna qoy! Məni bir göz qırpımı belə öz nəfsimlə başlı-başına buraxma!

"Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir![1]"– desə on kölə azad etmiş sayılar, üstəlik, ona yüz savab yazılar, onun yüz günahı silinər, *bundan başqa, bu dualar* həmin gün axşama qədər onu şeytandan qoruyar və *bu duanı* ondan çox deyən kimsə istisna olmaqla, heç kəs onun gətirdiyindən əfzəl başqa bir şey gətirə bilməz.[2]

**(51)** Rəsulullah ﷺ demişdir: "Kim hər səhər:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ، لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir!

[2] "Səhih əl-Buxari", 6403; "Səhih Muslim", 2071.

Şeyx Muhəmməd Nasirəddin əl-Albani ﵀ "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2762) demişdir: "Bu hədisdə "yüz dəfə" deyildikdə, gündə bir kərə bunu etmək nəzərdə tutulmur. Qeyd edək ki, bunu həm səhər yüz dəfə, həm də axşam yüz dəfə demək gərəkdir. Bu da, Nəsainin rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "...səhər yüz dəfə və axşam yüz dəfə"– desə..." (Sunən ən-Nəsai, 575).

"Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir!"– desə, bu onun üçün İsmail ﷺ nəslindən bir kölə azad etməyə bərabər olar, habelə, ona on savab yazılar, onun on günahı silinər, onun üçün on dərəcə yüksələr və bu, axşama kimi onu şeytandan qoruyar. Axşam bunu dedikdə də, həmçinin, bu onu səhərə qədər qoruyar."[1]

**(52)** Rəsulullah ﷺ demişdir: "Kim hər səhər on dəfə:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

"Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmd, yuhyi və yumit, və huvə alə kulli şeyin qadir[2]"– desə, ona hər birinə görə on savab yazılar, onun on günahı silinər, onun üçün on dərəcə yüksələr və bu onun üçün on kölə azad etməyə bərabər olar. Üstəlik, bu kəlmələr səhərdən axşamadək onun keşiyində durar və həmin gün heç bir xoşa-

[1] "Sunən Əbu Davud", 5077; bu hədis "səhih"dir, bax: "Mişkatul-Məsabih", 2395.

[2] 38 nömrəli zikrin qeydlərinə bax.

gəlməz iş görməz. Həmçinin, bu kəlmələri axşam on dəfə deyərsə, *həmin fəzilətə* nail olar."[1]

**(53)** Rəsulullah ﷺ demişdir: "Kim hər səhər və hər axşam yüz dəfə:

(( سُبْحَانَ اللهِ الْعَظِيمِ، وَبِحَمْدِهِ ))

"Subhanəllahil-azim və bihəmdih![2]"– desə, yaradılanlardan heç kəs onun qədər əzəmətli bir iş görmüş sayılmaz."[3]

**Yalnız səhər deyilən zikrlər:**

**(54)** Rəsulullah ﷺ demişdir: "Kim hər səhər:

(( رَضِيتُ بِاللَّهِ رَبًّا، وَبِالإِسْلاَمِ دِينًا، وَبِمُحَمَّدٍ نبيا ))

"Raditu billəhi rabbən, və bil-islami dinən, və bi Muhəmmədin ﷺ nəbiyyə![1]"– desə, mən

---

[1] "Musnəd İmam Əhməd", 5/420; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2563.

[2] Tərcüməsi: Böyük Allah pak və müqəddəsdir! Allaha həmd olsun!

[3] "Sunən Əbu Davud", 5091; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2563. Digər rəvayətdə Rəsulullah ﷺ demişdir: "Kim *bir dəfə* "Subhanəllahil-azim və bihəmdih!"– desə, Cənnətdə onun üçün bir ağac əkilər" (Sunən ət-Tirmizi, 2801; bu hədis "səhih"dir, bax: "Mişkatul-Məsabih", 2304.

onun əlindən tutub Cənnətə daxil edəcəyimə zəmanət verirəm."[2]

**(55)** Abdur-Rəhman ibn Əbzə ﷺ demişdir: "Rəsulullah ﷺ bizə hər səhər:

(( أَصْبَحْنَا عَلَى فِطْرَةِ الإِسْلاَمِ وَكَلِمَةِ الإِخْلاَصِ، وَدِينِ نَبِيِّنَا مُحَمَّدٍ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ، وَمِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ حَنِيفًا مُسْلِمًا، وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ ))

"Əsbəhnə alə fitratil-islam, və alə kəlimə-til-ixlas, və alə dini nəbiyyinə Muhəmmədin ﷺ və alə milləti əbinə İbrahimə hənifən musliмən və mə kənə minəl-muşrikin![3]"– deməyi öyrədərdi."[4]

---

[1] Tərcüməsi: Allahın Rəbb, İslamın din və Muhəmmədin ﷺ peyğəmbər olduğundan razıyam!

[2] "ət-Tərğib vət-Tərhib", 1/229; bu hədis "həsən"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2686.

[3] Tərcüməsi: İslam fitrətində, ixlas kəlməsində, Peyğəmbərimiz Muhəmmədin ﷺ dinində, hənif (*ixlasla Allaha ibadət edən)*, müsəlman olan və müşriklərdən olmayan atamız İbrahimin millətində olaraq səhərə çıxdıq!

[4] "Musnəd İmam Əhməd", 3/407; bu hədis "səhih"-dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 2989.

**(56)** İbn Abbas ﷺ demişdir:[1] "Peyğəmbər ﷺ sübh namazını qıldıqdan sonra Cuveyriyanın yanından çıxıb getdi və nəhayət, gün qalxdıqdan sonra onun yanına qayıtdı. Cuveyriya hələ də oturduğu yerdə idi. Peyğəmbər ﷺ dedi: "Sən indiyə qədər yerində oturmusan?" O: "Bəli!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: "Lakin mən səndən ayrılandan sonra üç kərə elə dörd kəlmə dedim ki, əgər onlar tərəzidə çəkilsə, sənin dediklərindən ağır gələr:

(( سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ وَرِضَا نَفْسِهِ وَزِنَةَ عَرْشِهِ وَمِدَادَ كَلِمَاتِهِ ))

"Subhanəllahi və bihəmdihi, adədə xalqihi, və rida nəfsihi, və zinətə arşihi və midadə kəlimatih![2]"

**Səhərin fəziləti və bərəkəti**:

Peyğəmbər ﷺ bu ümmət üçün Allahdan xeyir-bərəkət diləyib demişdir: "Allahım,

[1] "Səhih Muslim", 8/83.

[2] Tərcüməsi: Yaratdıqlarının sayı, Özündən razı olduğu, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik!

ümmətimin *hər* gününün əvvəlinə bərəkət ver!"[1]

Əbu Vail Şəqiq ibn Sələmə demişdir: "Bir gün biz sübh namazını qıldıqdan sonra Abdullah ibn Məsudun evinə getdik və qapıya çatdıqda salam verdik. Bizə içəri girmək üçün izin verdilər. Biz bir qədər qapının yanında durduq. Elə bu vaxt kəniz bayıra çıxıb: "Niyə içəri keçmirsiniz?"– dedi və biz içəri daxil olduq. Baxdıq ki, İbn Məsud oturub "Subhanəllah!"– deyə zikr edir. O *bizdən*: "Sizə izin verildiyi halda içəri girməyinizə nə mane oldu?– deyə soruşdu. Biz dedik: "Düşündük ki, ev əhlindən bəzisi yatmış olsun." O: "Yoxsa, siz İbn Ummu Abdın ailəsinin qəflətdə olduğunu güman edirsiniz?!"[2]– dedi, sonra zikr etməyə davam etdi. Nəhayət, o, Günəşin doğduğunu güman etdi və *cariyəsinə*: "Ay kəniz, bax gör, Günəş doğubmu?"– dedi. Kəniz gedib *havaya* baxdı və Günəşin hələ doğmadığını xəbər verdi. İbn Məsud yenə zikr etməyə davam etdi. Nəhayət, o, Günəşin doğduğunu zənn etdi və *cariyəsinə*: "Ay kəniz, bax gör,

---

[1] "Səhih İbn Hibban", 4754; bu hədis "səhih"dir, bax: "Səhih Əbu Davud", 2345.

[2] Yəni İbn Məsudun ﷺ ailəsinin bu bərəkətli vaxtda yatdığınımı düşünürsünüz.

Günəş doğubmu?"– dedi. Kəniz gedib *havaya* baxdı və Günəşin doğduğunu ona xəbər verdi. Onda, İbn Məsud dedi: "Bu günümüzdə bizə lütf eləyən və günahlarımıza görə bizi məhv etməyən Allaha həmd olsun!"[1]

**Yalnız axşam deyilən zikr:**

**(57)** Rəsulullah ﷺ demişdir: "Kim *hər* axşam üç dəfə:

(( أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ ))

"Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləq![2]"– desə, həmin gecə ona qızdırma toxunmaz."[3]

## Məsciddən çaxarkən edilən zikr

**(58)** Məsciddən çıxdıqda bu dua deyilir:

((بِسْمِ اللهِ والصَّلاةُ والسَّلامُ عَلَى رَسُولِ اللهِ،

---

[1] "Səhih Muslim", 2/205.

[2] Tərcüməsi: Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!

[3] "Sunən İbn Macə", 632. Bu duanın mətni İmam Muslimin "Səhih"ində də (7055) rəvayət edilmişdir.

اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ، اللَّهُمَّ اعْصِمْنِي مِن
الشَّيْطَانِ الرَّجِيم ))

"Bismilləh, vəs-səlatu vəs-səlamu alə Rasulilləh. Allahummə inni əs'əlukə min fədlikə. Allahummə'sımni minəş-şeytanir-rəcim![1]"[2]

## Minik vasitəsinə minərkən edilən zikr

**(59)** Əli ibn Rəbiə demişdir: "*Bir dəfə* mən Əlinin yanında ikən, ona bir minik heyvanı gətirdilər. O, ayağını üzəngiyə qoyub: "Bismilləh!"– dedi və heyvanın belinə qalxdı. Nəhayət, miniyin üstündə qərar tutduqda: "Əlhəmdulilləh!"– dedi, sonra da belə dua etdi:

(( سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ
وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ ))

"Subhanəl-ləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrinin. Və innə ilə Rabbinə

---

[1] Tərcüməsi: Allahın adı ilə! Rəsulullaha salavat və salam olsun! Allahım, Öz mərhəmət qapılarını mənim üçün aç!

[2] "Sunən Əbu Davud", 1/260; bu hədis "səhih"dir, bax: "Səhih əl-Cami", 514.

ləmunqalibun."[1] Sonra üç dəfə "Əlhəmdulilləh!" və üç dəfə "Allahu Əkbər!"[2] – dedi. Sonra davam edib belə dua etdi:

(( سُبْحَانَكَ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ ))

"Subhanəkə inni zaləmtu nəfsi fəğfir li, fə innəhu lə yəğfiruz-zunubə illə ənt."[3] Sonra o güldü. Mən dedim: "Nəyə güldün, ey möminlərin əmiri?" O dedi: "Mən Rəsulullahın ﷺ mənim kimi *minik heyvanına minib dua* etdiyini, sonra da güldüyünü gördüm və *ondan*: "Nə üçün güldün, ya Rəsulullah?"– deyə soruşdum. O da, belə buyurdu: "Sənin Rəbbin Öz bəndəsinin: "Rabbi-ğfir li zunubi!"[4] – deməsinə, *Özünə layiq tərzdə* güldü. Bəndəsi də bilir

---

[1] **"Bunu bizə tabe edən Allah pak və müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq!"** (əz-Zuxruf, 13-14).

[2] Allah ən Böyükdür!

[3] Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan!

[4] Ey Rəbbim, günahlarımı bağışla!

ki, Rəbbindən başqa heç kəs bu günahları bağışlaya bilməz."[1]

## Evə girərkən nə deyilir

**(60)** Adam evə daxil olarkən "Bismilləh!" deməli, sonra da ev əhlinə salam verməlidir!

Peyğəmbər ﷺ demişdir: "Adam öz evinə daxil olarkən və bir də yeməyə başlayarkən Allahı zikr etsə, şeytan öz yanında duranlara deyər: "*Burada* sizin nə gecələməyə yeriniz var, nə də yeməyiniz." Əgər *adam* evə daxil olduqda, Allahı zikr etməzsə, şeytan: "Siz gecələməyə yer tapdınız"– deyər. Və əgər yeməyə başladıqda, Allahı zikr etməzsə, şeytan: "Siz həm gecələməyə yer, həm də yemək tapdınız"– deyər."[2]

Uca Allah buyurur: **"Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın."**[3]

Ənəs ibn Malik ﷛ demişdir: "Rəsulullah ﷺ mənə belə buyurmuşdur: "Oğul bala, evə daxil olarkən əhli-əyalına salam ver ki, bu,

---

[1] "Sunən ət-Tirmizi" 3443; bu hədis "səhih"dir, bax: "Şəmailun-Nəbi", 233.
[2] "Səhih Muslim", 2018.
[3] "ən-Nur" surəsi, 61.

həm sənin üçün, həm də əhli-əyalın üçün bərəkət olsun!"[1]

Rəsulullah ﷺ demişdir: "Üç *sinif* insan vardır ki, Allah onlara zamin olur. *Onlardan hansı biri* həyatda qalarsa, Allah ona ruzi verər və onu qoruyar, ölərsə, onu Cənnətə daxil edər: kim öz evinə daxil olarkən salam verərsə, Allah ona zamin olar; kim məscidə gedərsə, Allah ona zamin olar; və bir də kim Allah yolunda cihada çıxarsa, Allah ona zamin olar."[2]

Miqdad ibn Əsvəd رضي الله عنه demişdir: "Rəsulullah ﷺ gecə vaxtı evə gəldikdə *asta səslə* salam verər – yatanları oyatmaz, oyaq qalanlara isə bu salamı eşitdirərdi."[3]

## Evin qapısını bağladıqda edilən zikr

**(61)** Adam evin qapısını bağlayarkən "Bismilləh!" deməlidir.

Rəsulullah ﷺ demişdir: "*Gecələr* "Bismilləh!" deyərək, *evinin* qapısını bağla! "Bismil-

---

[1] "Sunən ət-Tirmizi", 2915; bu hədis "səhih"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 1608.

[2] "Səhih İbn Hibban", 2915; bu hədis "səhih"dir, bax: "Səhih ət-Tərğib vət-Tərhib", 321.

[3] "Səhih Muslim", 8/128.

ləh!" deyərək, çırağı söndür! "Bismilləh!" deyərək, su tuluqlarının ağzını bağla!" "Bismilləh!" deyərək, hər nə ilə olursa olsun, qab-qacağın ağzını ört!"[1]

## Paltar soyunarkən nə deyilir

**(62)** Peyğəmbər ﷺ demişdir: "Cinlərin gözləri ilə insanların ayıb yerləri arasına çəkilən örtük, birinizin paltarını soyunarkən

(( بِسْمِ اللهِ ))

"Bismilləh!"– deməsidir."[2]

## Yatmazdan qabaq oxunan surələr

**(63)** Cabir ﷺ demişdir: "Rəsulullah ﷺ "əs-Səcdə" və "əl-Mulk" surələrini oxumadan yatmazdı."[3]

---

[1] "Səhih əl-Buxari", 3280. Başqa bir rəvayətdə Rəsulullah ﷺ demişdir: "Qab-qacağın üstünü örtün və su tuluqlarının ağzını bağlayın! Çünki ildə bir gecə vardır ki, həmin gecə vəba xəstəliyi Yer üzünə enir, sonra da üstündən keçdiyi elə bir ağzı açıq tuluq və elə bir üstü açıq qab qalmır ki, onun içinə girməmiş olsun" (Səhih Muslim, 6/107).

[2] "Səhih əl-Cami", 3610.

[3] "Sunən ət-Tirmizi", 2892; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 858.

İbn Məsud رضي الله عنه demişdir: "Kim hər gecə **"Mülk Əlində Olan *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır"**[1] *surəsini* oxusa, Allah bu surə sayəsində onu qəbir əzabından qoruyar. Biz Rəsulullahın ﷺ dövründə bu surəni "əl-Maniə (Mane olan)" adlandırardıq."[2]

**(64)** Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ "əz-Zumər" və "əl-İsra" surələrini oxumadan yatmazdı."[3]

**(65)** İrbad ibn Sariyə رضي الله عنه demişdir:[4] "Peyğəmbər ﷺ "əl-Musəbbihat"ı[5] oxumadan yatmazdı. Bu surələrdə elə bir ayə vardır ki, o ayə min ayədən xeyirlidir."

---

[1] Yəni, "əl-Mulk" surəsini.

[2] Nəsainin "əs-Sunən əl-Kubra", 10479; "Səhih ət-Tərğib vət-Tərhib", 1589.

[3] "Sunən ət-Tirmizi", 3405; bu hədis "səhih"dir, bax: "Silsilətul-Əhadisis-Səhihə", 641.

[4] "Sunən ət-Tirmizi", 3406; bu hədis "həsən"dir, bax: "Səhih ət-Tirmizi".

[5] Mubarəkfuri رحمه الله demişdir: "Burada "əl-Musəbbihat" deyildikdə, əvvəli ( سُبْحَانَ ), yaxud ( سَبَّحَ ), yaxud ( يُسَبِّحُ ), yaxud da ( سَبِّحْ ) kəlməsi ilə başlanan surələrə nəzərdə tutulur. Bunlar da yeddidir: "əl-İsra", "əl-Hədid", "əl-Həşr", "əs-Saff", "əl-Cumuə", "ət-Təğabun" və "əl-Əla" surələri" (Tohfətul-Əhvəzi).

## Yatağa girərkən edilən zikrlər

**(66)** Rəsulullah ﷺ demişdir: "Hər kim gecə "əl-Bəqərə" surəsinin son iki ayəsini oxuyarsa, bu ona kifayət edər.[1]"[2]

﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِۦ وَٱلْمُؤْمِنُونَ ۚ كُلٌّ ءَامَنَ بِٱللَّهِ وَمَلَٰٓئِكَتِهِۦ وَكُتُبِهِۦ وَرُسُلِهِۦ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِۦ ۚ وَقَالُوا۟ سَمِعْنَا وَأَطَعْنَا ۖ غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ ٱلْمَصِيرُ ﴿٢٨٥﴾ لَا يُكَلِّفُ ٱللَّهُ نَفْسًا إِلَّا وُسْعَهَا ۚ لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا ٱكْتَسَبَتْ ۗ رَبَّنَا لَا تُؤَاخِذْنَآ إِن نَّسِينَآ أَوْ أَخْطَأْنَا ۚ رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَآ إِصْرًا كَمَا حَمَلْتَهُۥ عَلَى ٱلَّذِينَ مِن قَبْلِنَا ۚ رَبَّنَا وَلَا تُحَمِّلْنَا مَا لَا طَاقَةَ لَنَا بِهِۦ ۖ وَٱعْفُ عَنَّا وَٱغْفِرْ لَنَا وَٱرْحَمْنَآ ۚ أَنتَ مَوْلَىٰنَا فَٱنصُرْنَا عَلَى ٱلْقَوْمِ ٱلْكَٰفِرِينَ ﴿٢٨٦﴾﴾

**(67)** Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ hər gecə yatağına uzandıqda əllərini cütləşdirib onların içinə üfürər, sonra ora "əl-İxlas", "əl-

---

[1] Bu iki ayə gecə namazına yatıb qalan adam üçün onu əvəz edər, yaxud bu ayələr insanı şeytandan və başqa bu kimi xəbislərin şərindən qoruyar (Şərh ən-Nəvəvi).
[2] "Səhih əl-Buxari", 4008; "Səhih Muslim", 2/198.

Fələq" və "ən-Nas" surələrini[1] oxuyar, sonra da əllərini baş və üz nahiyəsindən başlayaraq, bacardığı qədər bədəninin hər yerinə sürtərdi. Beləcə, o, bunu üç dəfə təkrar edərdi"[2]

**(68)** Əbu Hureyrə ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ ramazan ayında yığılmış zəkatı qoruyub saxlamağı mənə tapşırdı. Bu əsnada bir nəfər yanıma gəldi və ərzaqdan ovuclayıb *qabına* yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Vallahi, mən səni mütləq Peyğəmbərin ﷺ yanına aparacağam." O yalvarıb: "Mən buna möhtacam, mənim külfətim var, özümün də *bu yeməyə* olduqca ehtiyacım var"– dedi, mən də onu buraxdım. Ertəsi gün Peyğəmbər ﷺ məndən soruşdu: "Ey Əbu Hureyrə! Tutduğun əsir nə etdi?" Mən dedim: "Ya Rəsulallah! O *mənə* həm ehtiyaclı, həm də külfət sahibi olduğundan gileyləndi. Buna görə də mənim ona yazığım gəldi və onu buraxdım." Peyğəmbər ﷺ dedi: "O sənə yalan danışıb və o, yenə qayıdacaq." Mən bilirdim ki, o, qayıdacaq, çünki Peyğəmbər ﷺ: "o, yenə qayıdacaq"– deyə xəbər vermişdi. Odur ki,

---

[1] Bu kitabçadakı 36 nömrəli zikrə bax.
[2] "Səhih əl-Buxari", 5017.

pusquda durub onu gözlədim. O, yenə gəlib ərzaqdan ovuclayaraq *qabına* yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Səni hökmən Peyğəmbərin ﷺ yanına aparacağam." O, yalvarıb dedi: "Burax məni! Doğrudan da, mən buna möhtacam və mənim külfətim var. *Söz verirəm ki,* bir daha *bura* qayıtmayacağam." Mənim ona yazığım gəldi və mən yenə onu buraxdım. Ertəsi gün Peyğəmbər ﷺ məndən soruşdu: "Ey Əbu Hureyrə! Dünən tutduğun əsir nə etdi?" Mən dedim: "Ya Rəsulallah! O *mənə* həm möhtac, həm də külfət sahibi olduğundan giley-güzar elədi. Buna görə də, mənim ona yazığım gəldi və mən onu buraxdım." Peyğəmbər ﷺ dedi: "O sənə yalan danışıb və o, yenə qayıdacaq." Mən üçüncü dəfə pusquda dayanıb onu gözlədim. O, yenə gəlib ərzaqdan ovuclayaraq *qabına* yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Mən səni hökmən Peyğəmbərin ﷺ yanına aparacağam. Artıq üçüncü dəfədir ki, sən qayıtmayacağına söz verir, sonra da qayıdırsan." O, yalvarıb dedi: "Məni buraxsan, sənə elə sözlər öyrədərəm ki, Allah onların vasitəsilə sənə fayda verər." Mən: "O, nə sözdür?"– deyə soruşdum. O dedi: "Yatağına uzananda

"Kursi"– **"Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur..."**[1]– ayəsini axıra qədər oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi *bir mələk* durar və şeytan sənə yaxınlaşmaz." Mən yenə onu buraxdım. Səhəri gün Peyğəmbər ﷺ məndən soruşdu: "Dünən tutduğun əsir nə etdi?" Mən dedim: "Ya Rəsulullah, o, Allahın izni ilə mənə faydası olacaq sözlər öyrədəcəyini söylədi və mən də onu buraxdım." Peyğəmbər ﷺ: "Nədir, o?"– deyə soruşdu. Mən dedim: "O mənə söylədi ki, yatağına uzananda "Kürsü" – "Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur..."– ayəsini əvvəldən axıra qədər oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi *bir mələk* durar və şeytan sənə yaxınlaşmaz."

Peyğəmbər ﷺ dedi: "O sənə doğru söylədi, halbuki, özü qatı yalançıdır. Sən üç gecədir kiminlə söhbət etdiyini bilirsənmi, ey

---

[1] Bu kitabçadakı 37 nömrəli zikrə bax.

Əbu Hureyrə?" Mən: "Xeyr!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: "O, şeytan idi!"[1]

**(69)** Əli *ibn Əbu Talib* ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ ona və qızı Fatiməyə demişdir: "Məndən istədiyinizdən daha xeyirlisini sizə öyrədimmi? Yatağınıza uzandığınız zaman otuz dörd dəfə "Allahu Əkbər!", otuz üç dəfə "Sübhanəllah!" və otuz üç dəfə "Əlhəmdulillah!" deyin. Bu sizin üçün xidmətçidən daha xeyirli olar."[2]

**(70)** Rəsulullah ﷺ demişdir: "Sizdən biriniz yatağına uzanmaq istədikdə, qoy, izarının iç tərəfi ilə yatağını çırpsın. Çünki o özündən sonra yatağına nəyin girdiyini bilmir. Sonra da belə desin:

(( بِاسْمِكَ رَبِّ وَضَعْتُ جَنْبِي وَبِكَ أَرْفَعُهُ إِنْ أَمْسَكْتَ نَفْسِي فَارْحَمْهَا وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِهِ عِبَادَكَ الصَّالِحِينَ ))

"Bismikə rabbi vəda'tu cənbi və bikə ərfəuh. Fəin əmsəktə nəfsi fərhəmhə, və in ər-

[1] "Səhih əl-Buxari", 2311.
[2] "Səhih əl-Buxari", 3705; "Səhih Muslim", 8/84.

səltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin![1]”[2]

**(71)** Abdullah ibn əl-Haris demişdir: “*Bir dəfə* Abdullah ibn Ömər bir kişiyə buyurdu ki, yatağına uzandığın zaman:

(( اللَّهُمَّ إِنَّكَ خَلَقْتَ نَفْسِي وَأَنْتَ تَوَفَّاهَا لَكَ مَمَاتُهَا وَمَحْيَاهَا إِنْ أَحْيَيْتَهَا فَاحْفَظْهَا وَإِنْ أَمَتَّهَا فَاغْفِرْ لَهَا اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ ))

“Allahummə, innəkə xaləqtə nəfsi, və əntə təvaffahə, ləkə məmatuhə və məhyahə, in əhyəytəhə fəhfəzhə, və in əməttəhə fəğfir ləhə. Allahummə, inni əs'əlukəl-afiyəh![3]”– desin.

Adam: “Sən bunu Ömərdən eşitmisən?”– deyə soruşdu. İbn Ömər dedi: “Ömərdən də xeyirlisindən, Peyğəmbərdən ﷺ eşitmişəm.”[4]

---

[1] Tərcüməsi: “Ey Rəbbim, Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də onu qaldırıram. Ruhumu tutub saxlasan, ona rəhm et, onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi onu da qoru!

[2] “Səhih əl-Buxari”, 6320.

[3] Tərcüməsi: Allahım, canımı Sən yaratdın, Sən də onu alacaqsan. Onu öldürmək də, diriltmək də Sənə məxsusdur. Onu diriltsən, qoru, öldürsən, bağışla! Allahım, Səndən salamatlıq diləyirəm!

[4] “Səhih Muslim”, 8/78; “Musnəd İmam Əhməd”, 2/79. Bu, İmam Əhmədin mətnidir.

**(72)** Huzeyfə ibn Yəmən ﷠ demişdir: "Peyğəmbər ﷺ yatağına uzandıqda deyərdi:

(( بِاسْمِكَ اللَّهُمَّ أَمُوتُ وَأَحْيَا ))

"Bismikə Allahummə əmutu və əhya![1]"[2]

**(73)** Bəra ibn Azib ﷠ demişdir: "Peyğəmbər ﷺ yatağına uzandıqda, əlini sağ yanağının altına qoyub deyərdi:

(( اللَّهُمَّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ ))

"Allahummə, qıni əzabəkə yovmə təb'asu ibadək![3]"[4]

**(74)** Əbu Hureyrə ﷠ rəvayət edir ki, *bir gün* Əbu Bəkr ﷠ dedi: "Ya Rəsulullah, mənə elə bir şey öyrət ki, onu həm səhər, həm də axşam zikr edim." Rəsulullah ﷺ buyurdu: "De:

(( اللَّهُمَّ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ

---

[1] Tərcüməsi: Allahım, Sənin adınla ölür və dirilirəm!

[2] "Səhih əl-Buxari", 6312. "Səhih Muslim", 8/78.

[3] Tərcüməsi: Allahım, bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru!

[4] "Sunən Əbu Davud", 4/311; bu hədis "səhih"dir, bax: "Səhih əl-Ədəbul-Mufrad", 1215.

أَنْتَ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي، وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ ))

“Allahummə, aliməl-ğaybi vəş-şəhadə, fatirəs-səmavati vəl-ərd, Rabbə kulli şeyin və məlikəh, əşhədu ən lə ilahə illə ənt, əuzu bikə min şərri nəfsi, və min şərriş-şeytani və şirkih, və ən əqtərifə alə nəfsi suə, əu əcurrəhu ilə muslim![1]” Bunu həm səhər, həm axşam, həm də yatağına girdikdə söylə.”[2]

**(75)** Əbu Hureyrə ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ yatağına uzandıqda deyərdi:

(( اللَّهُمَّ رَبَّ السَّمَوَاتِ السَّبْعِ وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ، رَبَّنَا وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ الْحَبِّ وَالنَّوَى، وَمُنْزِلَ التَّوْرَاةِ وَالإِنْجِيلِ وَالْفُرْقَانِ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ شَيْءٍ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ، اللَّهُمَّ أَنْتَ الأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَيْءٌ، وَأَنْتَ الآخِرُ فَلَيْسَ بَعْدَكَ شَيْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ

---

[1] 47 nömrəli zikrin tərcüməsinə bax.

[2] “Sunən ət-Tirmizi”, 3389; bu hədis “səhih”dir, bax: “Səhih əl-Ədəbul-Mufrad”, 1202.

فَوْقَكَ شَىْءٌ، وَأَنْتَ الْبَاطِنُ فَلَيْسَ دُونَكَ شَىْءٌ، اقْضِ عَنَّا الدَّيْنَ وَأَغْنِنَا مِنَ الْفَقْرِ ))

"Allahummə, Rabbəs-səmavatis-səb'i və Rabbəl-arşil-azim. Rabbənə və rabbə kulli şey, faliqal-həbbi vən-nəva, munzilət-Tovrati vəl-İncili vəl-Furqan. Əuzu bikə min şərri kulli şeyin əntə axizun binasiyətih. Allahummə, əntəl-əvvəlu fəleysə qabləkə şey, və əntəl-axiru fəleysə bə'dəkə şey, və əntəz-zahiru fəleysə fovqakə şey, və əntəl-batinu fəleysə dunəkə şey, iqdi annəd-deynə və əğninə minəl-fəqr![1]"[2]

**(76)** Peyğəmbər ﷺ demişdir: "Kim yatağına uzandıqda:

(( لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ

---

[1] Tərcüməsi: Allahım, Yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi, bizim Rəbbimiz və hər bir şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən *Allahım*! Kəkilindən tutduğun (idarə etdiyin) hər bir şeyin şərindən Sənə sığınıram. Allahım, Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumuzu ödə və bizi yoxsulluqdan qurtar!

[2] "Səhih Muslim", 8/78.

وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ، سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلَا إِلَهَ إِلَّا اللَّهُ وَاللَّهُ أَكْبَرُ ))

“Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, və lə hovlə və lə quvvətə illə billəh, subhanallah, vəlhəmdulilləh, və lə ilahə illallah, vəllahu əkbər![1]”– desə, Allah onun günahlarını, – bu günahlar dənizdəki köpüklər qədər olsa belə, – bağışlayar”[2]

**(77)** Ənəs ﷺ demişdir: “Rəsulullah ﷺ yatağına uzandıqda deyərdi:

(( الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا وَكَفَانَا وَآوَانَا فَكَمْ مِمَّنْ لَا كَافِيَ لَهُ وَلَا مُئْوِيَ ))

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Qüdrət və güc yalnız Allaha aiddir! Allah pak və müqəddəsdir. Həmd Allaha məxsusdur. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Allah ən Böyükdür.

[2] “Səhih İbn Hiban”, 2365; bu hədis “səhih”dir, bax: “Silsilətul-Əhadisis-Səhihə”, 3414.

"Əlhəmdulilləhil-ləzi ət'əmənə və səqanə və kəfanə və əvanə, fəkəm mimmən lə kafiyə ləhu və lə mu'viy![1]"[2]

**(78)** Rəsulullah ﷺ demişdir: "Kim yatağına uzandıqda:

(( الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانِي وَآوَانِي، الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي وَسَقَانِي، الْحَمْدُ لِلَّهِ الَّذِي مَنَّ عَلَيَّ وَأَفْضَلَ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِعِزَّتِكَ أَنْ تُنَجِّيَنِي مِنَ النَّارِ ))

"Əlhəmdulilləhil-ləzi kəfani və əvani. Əlhəmdulilləhil-ləzi ət'əməni və səqani. Əlhəmdulilləhil-ləzi mənnə aleyyə və əfdal. Allahummə, inni əs'əlukə biizzətikə ən tunəcciyəni minən-nar![3]"– desə, yaradılanla-

---

[1] Tərcüməsi: Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq verəni var!

[2] "Səhih Muslim", 8/79.

[3] Tərcüməsi: Məni qoruyan və mənə sığınacaq verən Allaha həmd olsun! Məni yedirdən və məni içirdən Allaha həmd olsun! Mənə iltifat və mərhəmət göstərən Allaha həmd olsun! Allahım, Sənin izzətinlə Sənə yalvarıram ki, məni Cəhənnəm odundan qoruyasan!

rın hamısının dediyi təriflərlə Allaha həmd etmiş olar.” [1]

**(79)** Əbul-Əzhər əl-Ənmari ﵁ rəvayət etmişdir ki, Rəsulullah ﷺ gecə yatağına girərkən deyərdi:

(( بِسْمِ اللهِ وَضَعْتُ جَنْبِي اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي، وَأَخْسِئْ شَيْطَانِي، وَفُكَّ رِهَانِي، وَاجْعَلْنِي فِي النَّدِيِّ الأَعْلَى ))

“Bismilləhi vəda'tu cənbi. Allahumməğfirli zənbi, və əxsi' şeytani, və fukkə rihani, vəc'alni fin-nədiyyil-ə'la![2]”[3]

**(80)** Bəra ibn Azib ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Yatmaq istədiyin zaman namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al; sonra sağ böyrün üstə uzan; sonra de:

---

[1] “Mustədrək əl-Hakim”, 1/545-546; bu hədis “səhih”dir, bax: “Səhih ət-Tərğib vət-Tərhib”, 609.

[2] Tərcüməsi: Allahın adı ilə böyrümü yerə qoydum. Allahım, mənim günahımı bağışla, şeytanımın rədd olub getməsində və borcumu ödəməkdə mənə yardım et, və məni uca dostların cərgəsinə daxil et!

[3] “Sunən Əbu Davud”, 5054; bu hədis “səhih”dir, bax: “Mişkatul-Məsabih”, 2409 (ikinci təhqiq).

(( اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لاَ مَلْجَأَ وَلاَ مَنْجَا مِنْكَ إِلاَّ إِلَيْكَ، اللَّهُمَّ آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ ))

"Allahummə, əsləmtu nəfsi vachi ileykə, və vəccəhtu vachi ileykə, və fəvvədtu əmri ileykə, və əlcə'tu zahri ileykə, rağbətən və rahmətən ileyk. Lə məlcə və lə məncəə minkə illə ileyk. Aməntu bikitabikəl-ləzi ənzəltə və binəbiyyikəl-ləzi ərsəltə![1]" Əgər həmin gecə ölsən, fitrət üzərində[2] ölmüş sayılarsan. Qoy, bu, sözün sənin son sözün olsun."[3]

---

[1] Tərcüməsi: Allahım, Sənə ümid edərək və Səndən qorxaraq, canımı Sənə təslim etdim, işimi Sənə həvalə etdim, üzümü Sənə çevirdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Sənin əzabından xilas olmaq üçün nicat yeri, yalnız, Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!

[2] Yəni heç bir günahı olmadan, anadan doğulmuş uşaq kimi.

[3] "Səhih əl-Buxari", 6315; "Səhih Muslim", 2081.

**(81)** Nofəl əl-Əşcəi رضي الله عنه demişdir: *"Bir gün* mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ey Allahın peyğəmbəri, mənə elə bir şey öyrət ki, yatağıma girdiyim zaman onu oxuyum." Peyğəmbər ﷺ buyurdu: "Yatağına uzandığın zaman **"De: "Ey kafirlər!"**[1] surəsini oxu, sonra yat. Qoy, bu, oxuduğun son surə olsun! Heç şübhəsiz ki, bu surə səni şirkdən uzaq tutar."[2]

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

﴿قُلْ يَٰٓأَيُّهَا ٱلْكَٰفِرُونَ ﴿١﴾ لَآ أَعْبُدُ مَا تَعْبُدُونَ ﴿٢﴾ وَلَآ
أَنتُمْ عَٰبِدُونَ مَآ أَعْبُدُ ﴿٣﴾ وَلَآ أَنَا۠ عَابِدٌ مَّا عَبَدتُّمْ ﴿٤﴾ وَلَآ أَنتُمْ
عَٰبِدُونَ مَآ أَعْبُدُ ﴿٥﴾ لَكُمْ دِينُكُمْ وَلِىَ دِينِ ﴿٦﴾﴾

---

[1] Yəni "əl-Kafirun" surəsi.

[2] "Sunən Əbu Davud", 5055; bu hədis "səhih"dir, bax: "Səhih ət-Tirmizi", 3643.

## Son söz

Bu kitabçadakı hədislərdən aydın olur ki, əməllərimizin ən xeyirlisi, Rəbbimiz yanında ən təmizi və dərəcələrimiz arasında ən yüksək olanı, üstəlik, bizim üçün qızıl və gümüş sədəqə verməkdən, habelə, düşmənimizlə qarşı-qarşıya gəlib onların boynunu vurmaqdan daha xeyirli olanı, Allahı zikr etməkdir.

Qeyd olunan zikrlərin əksəriyyətində "Lə ilahə illəllah" kəlməsi keçir ki, bu da imanın bünövrəsi sayılır. Müsəlman olmaq istəyən hər kəs bu tovhid kəlməsini dili ilə tələffüz etməli, onu qəlbən qəbul etməli və onun tələblərini yerinə yetirməlidir. Peyğəmbər ﷺ demişdir: "Lə ilahə illəllah" deyən və *qəlbən* bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcəkdir."[1] Son nəfəsdə "Lə ilahə illəllah!" demək isə hər adama nəsib olmur. Buna nail olmaq üçün isə Allaha yalvarmaq gərəkdir.

Gələndə son yuxu, bitəndə tabım,
Güllərim tökülsə, qalsın gülabım.
Dilimə Sən Özün bəxş et şəhadət,
İşimin sonunda tapım səadət. [2]

---

[1] "Səhih Muslim", 273.
[2] Nizami Gəncəvi, "Xosrov və Şirin", səh. 29.

Allah bizi son nəfəsimizdə "Lə ilahə illəllah!" deyib bu dünyadan köçən kimsələrdən etsin!

Gündəlik zikrləri yerinə yetirən mömin adamlar Allahın əzizi və Onun ən yaxını sayılır, onların qəlbi bu zikrlər sayəsində rahatlıq tapır, habelə, mələklər öz qanadları ilə onları əhatəyə alır, rəhmət onları bürüyür, onların üzərinə sükunət nazil olur və Allah onları Öz yanındakıların arasında yad edir.

Allahı zikr edən mömin Qiyamət günü Rəsulullahın ﷺ şəfaəti sayəsində ən böyük səadətə çatar, Allah onu Cəhənnəm odundan qoruyar, Cənnətin səkkiz qapısı onun üçün açılar və o, istədiyindən *Cənnətə* daxil olar.

Bu zikrlər öz sahibini – yəni onları zikr edən adamı adını çəkir, Allah yanında onun üçün şahidlik edirlər. Üstəlik, həmin möminlər xeyirxah işlərdə hamını ötüb keçir, olduqca çoxlu savab qazanır, ən yüksək mənzillərdən birinə sahib olur və günahları – dənizdəki köpüklər qədər olsa belə, bağışlanır.

Bir zaman İblis öz Rəbbinə: "Sənin izzətinə və cəlalına and olsun ki, Adəm övladının ruhu bədənində olduğu müddətcə mən onları haqq yolundan sapdıracağam!"– demiş, Rəbbi

də ona belə cavab vermişdir: "İzzətimə və cəlalıma and olsun ki, onlar Məndən bağışlanma dilədikcə, Mən onları bağışlayacağam!"[1]

Bu da, o deməkdir ki, insan ölənədək şeytan ondan əl çəkməyəcək, hər gün səhərdən axşama, axşamdan da səhərədək onu Allaha asilik etməyə təhrik edəcək. Ondan qorunmağın yollarını isə Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi bu gündəlik zikrlərdir. Ən gözəli də Quran oxumaqdır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Evlərinizi qəbiristanlığa çevirməyin! Həqiqətən, şeytan "əl-Bəqərə" surəsi oxunan evdən qaçar."[2]

Nizami Gəncəvi demişdir:

Kəsərli ayəni öyrətmək Səndən,
Şeytanın gözünü tikməksə, məndən.[3]

Hərçənd, insan ömrü boyu xətalara yol verir, lakin Rəbbindən bağışlanma dilədikcə, Rəbbi onu bağışlayır.

Allahdan da istəyimiz budur ki, bizi daim Onu zikr etməyə müvəffəq etsin və

[1] "Musnəd İmam Əhməd", 3/41; bu hədis "səhih"-dir, bax: "Səhih əl-Cami", 499.
[2] "Səhih Muslim", 2/188.
[3] Nizami Gəncəvi, "İskəndərnamə", səh. 18.

bunun sayəsində bizi Özünün əzizlərindən və ən yaxınlarından etsin, habelə, davamlı olaraq bizi Öz yanındakıların arasında yad etsin, bizim dərəcələrimizi yüksəltsin, bizləri xeyirxah işlərdə hamını ötüb keçən, olduqca çoxlu savab qazanan və ən yüksək mənzillərə sahib olan möminlərdən etsin!

Qiyamət günü bizləri Rəsulullahın ﷺ şəfaəti sayəsində ən böyük səadətə çatan, Cəhənnəm odundan qurtulan və Cənnətə daxil olan kimsələrdən etsin.

Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün bizə yardım et!

# *Mündəricat*

Müqəddimə ...............................................................3
Zikrin fəziləti ............................................................... 6
Ən fəzilətli zikrlər..................................................... 16
Quranın fəziləti ......................................................... 21
"Lə ilahə illəllah!" kəlməsinin fəzilətli................... 40
"Subhanəllahi vəlhəmdulilləhi və lə ilahə illəllahu vəllahu əkbər!" kəlməsinin fəzilətli........ 46
"Lə hovlə və lə quvvətə illə billəh!" kəlməsinin fəzilətli ............................................................... 54
"Əstəğfirullahə və ətubu ileyh!" kəlməsinin fəzilətli ........................................................................ 57
"Subhanəllahi və bihəmdih!" kəlməsinin fəzilətli ........................................................................ 63
Rəsulullaha ﷺ salavat və salam deməyin fəzilətli ........................................................................ 65
Müsəlmanlar arasında salamı yaymağın fəzilətli. ....................................................................... 70
Yuxudan oyandıqda edilən zikrlər ........................ 75
Paltar geyinərkən nə deyilir ................................... 79
Ayaqyoluna girərkən edilən zikr............................ 80
Ayaqyolundan çıxarkən edilən zikr....................... 81
Dəstəmaz almağa başladıqda edilən zikr ............. 81
Dəstəmaz aldıqdan sonra edilən zikr .................... 82
Yeməyə başlayarkən edilən zikr............................ 83
Yeməyi bitirdikdən sonra edilən zikrlər ............... 85
Evdən çıxarkən edilən zikrlər ................................ 88

Məscidə gedərkən edilən zikr ................................ 89
Məscidə girərkən edilən zikr .................................. 90
Azanı eşitdikdə oxunan zikrlər.............................. 91
Salam verib namazı bitirdikdən sonra edilən zikrlər .................................................................. 96
Səhər və axşam zikrləri.......................................... 107
Məsciddən çıxarkən edilən zikr ............................ 125
Minik vasitəsinə minərkən edilən zikr ................ 126
Evə girərkən nə deyilir .......................................... 128
Evin qapısnı bağladıqda edilən zikr .................... 129
Paltar soyunarkən nə deyilir ................................. 130
Yatmazdan qabaq oxunan surələr........................ 130
Yatağa girərkən edilən zikrlər............................... 131
Son söz .................................................................... 146